RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 260 (8283) ŞƏNBƏ, 23 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qürur doğuran yüksəliş nümunəsi

Azərbaycanın qüdrətlənməsi, qlobal miqyasda özünün layiqli yeri və söz sahibi olan dövlət kimi fərqlənməsi beynəlxalq ictimaiyyət tərəfindən təsdiq olunan reallıqdır. Hər bir sahədə özünü doğruldan fəaliyyət proqramlarının real nəticəsi olaraq respublikamız hərtərəfli inkişaf yolu ilə inamla addımlayır. İndi ölkədə iqtisadiyyatın vaxtilə əlçatmaz görünən tərəfləri belə sürətlə inkişaf edir, sosial rifah səviyyəsi durmadan yüksəlir, bütün sahələrdə dünya standartlarına uyğun müasir infrastruktur formalaşır.

## Sosial-iqtisadi uğurlarda regionların öz payı var

Ötən 16 ilin statistikasına nəzər salsaq, qürur doğuran nailiyyətlərin qazanıldığını görərik. Ən mühüm uğurlarımızın sırasında Azərbaycanda iqtisadiyyatın 3,2 dəfə artımını xüsusi qeyd etməliyik. Azərbaycanın sənaye potensialı 3 dəfəyə yaxın çoxalıb ki, bu da ölkənin keçdiyi nümunəvi inkişaf yolunun mühüm göstəricisidir. Valyuta ehtiyatlarımızın bu dövrdə 50 milyard dolları ötməsi, iqtisadiyyata 270 milyard dollardan artıq sərmayənin yatırılması, 15 min kilometrdən çox avtomobil yolunun çəkilməsi və ya yenidən qurulması kimi diqqətəlayiq göstəricilərin hər biri keçdiyimiz şərəfli inkişaf yolunun ayrı-ayrı səhifələridir. Bu, ümumiyyətlə, analoqu olmayan yüksəliş nümunəsidir.

Azərbaycanın iqtisadi uğurları sosial sferanı əhatə edən sahələrin də yüksəlişinə yol açıb. İşsizlik və yoxsulluğun 5 faiz həddinə enməsi, 3 min 200-dən çox məktəb binasının, 640-dan çox səhiyyə ocağının əsaslı təmiri və ya yenidən qurulması, 44 olimpiya mərkəzinin, yüzlərlə idman qurğularının inşası əslində onu göstərir ki, qısa dövrdə Azərbaycan bir neçə onilliyə bərabər inkişaf yolu keçib.

Xüsusilə qeyd etməliyik ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası ölkə iqtisadiyyatının yüksəlməsində mühüm əhəmiyyət kəsb etməklə makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, infrastruktur və kommunal xidmətlərin daha da yaxşılaşmasında, yoxsulluq səviyyəsinin aşağı düşməsində və əhalinin rifah halında müstəsna rol oynamaqdadır. Bu baxımdan ölkədə qazanılan sosial-iqtisadi uğurlarda Azərbaycanın regionlarının öz payı var. Ona görə də indi istənilən şəhər və rayonumuzun timsalında Azərbaycanın nail olduğu yüksəlişi görmək mümkündür.

Regionların inkişafının başqa bir təsdiqi isə bu il üçün 35 şəhər və rayonun dövlət büdcəsindən maliyyələşməməsidir. Bəli, hazırda bu sayda şəhər və rayon özünün daxili imkanları hesabına büdcəsini formalaşdırır. Gələn il isə belə şəhər və rayonların sayı 39-a çatacaq.

## Bütün şəhər və rayonlar davamlı inkişafdadır

Yenidən qurulan, abadlaşan və iqtisadi potensialı hərəkətə gətirilən bölgələrimiz həm də inkişafın milli modelinin bariz nümunələridir. Ölkəmizin ümumi tərəqqisinə hər birinin böyük töhfəsi olan şəhərlərimizin sırasında Sumqayıtın yeri tamamilə başqadır.

Bu şəhərin tarixi ənənələr əsasında inkişaf edərək nəinki Azərbaycanın və Cənubi Qafqazın, ümumən Avropanın iri sənaye mərkəzlərindən birinə çevrilməsi, Bakı şəhəri ilə tam rəqabət aparmaq imkanına malik olması Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən və dövrün tələbinə uyğun zənginləşdirən Prezident İlham Əliyevin müəyyənləşdirdiyi əsas hədəflərdəndir.

*Ardı 5-ci səh.*

# Azərbaycan-Rusiya münasibətləri Azərbaycan və Rusiya xalqlarının rifahı naminə bundan sonra da uğurla inkişaf edəcək

**Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın noyabrın 22-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti avqustun 13-də imzaladığı fərmana əsasən "Dostluq" ordeni ilə təltif etdiyi Azərbaycanın Birinci vitse-prezidentinə dövlət mükafatını təqdim edib.

Rusiya dövlət başçısının Novo-Oqaryovadakı iqamətgahında keçirilən görüşdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı salamlayan **Prezident Vladimir PUTİN** dedi:

- Hörmətli Mehriban Arif qızı.

İcazə verin, Sizi Moskvada indiyə qədər olmadığınız qisimdə - Birinci vitse-prezident kimi salamlayım. Mən bilirəm ki, Sizin səfərinizin çox böyük, zəngin proqramı var. Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Anatolyeviç Medvedev Sizinlə görüşü barədə mənə artıq məruzə edib. Bilirəm ki, orada danışmağa mövzu olub. Mən, ilk növbədə, bizim ticari-iqtisadi əlaqələrimizin artan həcmini nəzərdə tuturam. Cari ilin doqquz ayı ərzində əmtəə dövriyyəsi 26 faiz artıb. Bu, ciddi göstəricidir. Biz demək olar ki, bütün istiqamətlər üzrə - parlamentlər, ictimai təşkilatlar səviyyəsində əlaqə saxlayırıq.



Azərbaycan Prezidenti ilə mənim çox etimada əsaslanan mehriban münasibətlərim formalaşıb. Bilirəm ki, sabah Siz Valentina İvanovna ilə birlikdə X Regionlararası Forumu da açacaqsınız. Hesab edirəm ki, bu, bizim əməkdaşlığımızın olduqca mühüm istiqamətidir. Ona görə ki, bizim qarşılıqlı fəaliyyətimizin xeyli hissəsi məhz regionlar səviyyəsində həyata keçirilir. Bizim təklifimizi qəbul etdiyinizə və Moskvaya səfərə gəldiyinizə görə Sizə təşəkkür etmək istəyirəm.

❖ ❖ ❖

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban ƏLİYEVA** dedi:

- Hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Rusiyaya rəsmi səfərə dəvət edilməyimə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Yenidən Moskvada olmağıma çox şadam. Moskva mənim üçün yaxın, doğma şəhərdir. Mənim tələbəlik illərim burada keçib. Moskva hər dəfə göz oxşayır. Mənim Rusiya Federasiyasının dövlət mükafatı - "Dostluq" ordeni ilə təltif edilməyimə görə də Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu, mənim Rusiya-Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətimə verilən yüksək qiymətdir.

Fürsətdən və imkandan istifadə edib Sizə Azərbaycan Respublikası Prezidentinin salamını və ən xoş arzularını çatdırmaq istəyirəm. O, Sizinlə münasibətləri çox yüksək qiymətləndirir və Rusiya-Azərbaycan münasibətlərinə xüsusi əhəmiyyət verir. Sizinlə İlham Heydər oğlu arasında müntəzəm görüşlər bizim ikitərəfli əlaqələrin çoxvektorluluğunu və dinamizmini müəyyən edir.

*Ardı 2-ci səh.*

# Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artır

## Dövlətimizin dünya birliyində mövqeyi möhkəmlənir

Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir və bu dəyərləri təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda həm həyat tərzi, həm də dövlət siyasətidir. Ölkəmizdə bu istiqamətdə bir çox önəmli addımlar atılmış, mötəbər beynəlxalq tədbirlər keçirilmişdir.

Qoşulmama Hərəkatının ötən ay Bakıda keçirilmiş XVIII Zirvə Görüşü zamanı bəşəri dəyərlərin təbliğinə xüsusi diqqət yetirildi, bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqlik nümayiş etdirildi. Qoşulmama Hərəkatı özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

*Ardı 5-ci səh.*

# Rusiya telekanalları Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu ölkəyə rəsmi səfərindən reportajlar yayımlayıb

Rusiya telekanalları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu ölkəyə rəsmi səfəri barədə reportajlar yayımlayıb.

AZƏRTAC xəbər verir ki, Rusiyanın Birinci kanalında yayımlanan süjetdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın səfər proqramının zəngin olduğu vurğulanıb. Qeyd edilib ki, Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Prezidentinin salamlarını və ən xoş arzularını Rusiya Hökumətinin Sədri Dmitri Medvedevə çatdırıb.

Vurğulanıb ki, Birinci vitse-prezident X Rusiya-Azərbaycan Regionlararası Forumunda və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun açılışında iştirak edəcək. Pavilyon kompleksin 80 illiyi münasibətilə yenidən bərpa edilib.

"Rossiya-24" telekanalında yayımlanan reportajda bildirilib ki, Dmitri Medvedevin Mehriban Əliyeva ilə görüşündə iki ölkə arasında ticarət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə olunub.

"Rossiya-1" kanalında yayımlanan reportajda da görüş barədə geniş məlumat verilib.

Həmçinin Azərbaycanın Birinci vitse-prezidentinin rəsmi səfər çərçivəsində "Lujniki" Olimpiya Kompleksində Gimnastika Mərkəzi ilə də tanış olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Birinci vitse-prezident Mehriban Əliyeva artıq 17 ildir Azərbaycanda Gimnastika Federasiyasının prezidentidir.

# Sabitlik Azərbaycanın uğurlu və davamlı inkişafının əsas amillərindəndir

Bakıda son illər beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənə halını almaqdadır. Belə mötəbər tədbirlərin təşkili ölkəmizin dünyanın inkişaf etmiş, eyni zamanda Azərbaycanı yaxından tanımayan dövlətləri ilə sıx ünsiyyət baxımından da olduqca vacibdir. Dünya dini liderlərinin II Bakı Sammitinin də paytaxtımızda keçirilməsi ümumi maraq və məqsədlər üçün çox önəmli hesab edilir. Prezident İlham Əliyev sammitdə çıxış edərkən bildirdi ki, Azərbaycan qədim dinlərarası ənənələrə bu gün də böyük hörmətlə yanaşır: "...Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərib. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir.

*Ardı 5-ci səh.*

## “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, № 11, maddə 1273; 2016, № 6, maddə 992; 2017, № 1, maddə 8, № 11, maddə 1982; 2018, № 5, maddə 884) aşağıdakı məzmunda 7.1.2-1-ci maddə əlavə edilsin:

“7.1.2-1. Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi və onlardan istifadə edilməsi qaydalarını müəyyən edir;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

## “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1684-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1684-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun 7.1.2-1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi və onlardan istifadə edilməsi qaydalarını üç ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2019-cu il*

## Əlil və şəhid ailələrinin mənzil təminatı ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əlil və şəhid ailələrinin mənzillə təminatının davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 500 000 (beş yüz min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

## “Pivot” layihəsi çərçivəsində əkin sahələrində müasir suvarma (yağışyağdırma) sistemlərinin quraşdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Pivot” layihəsi çərçivəsində əkin sahələrində müasir suvarma (yağışyağdırma) sistemlərinin quraşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikasında Süni Mayalanma Mərkəzinin yaradılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında Süni Mayalanma Mərkəzinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 4,8 milyon (dörd milyon səkkiz yüz min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

## Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 34,3 milyon (otuz dörd milyon üç yüz min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

# Azərbaycan-Rusiya münasibətləri Azərbaycan və Rusiya xalqlarının rifahı naminə bundan sonra da uğurla inkişaf edəcək

*Əvvəli 1-ci səh.*





Mən həm də Azərbaycan Respublikası Prezidentinin Sizə münasib vaxtda ölkəmizə səfər etmək təklifini çatdırmaq istəyirəm.

Bizim ölkələrimiz arasında münasibətlər möhkəm mehriban qonşuluq və dostluq ənənələrinə malikdir. Rusiya Federasiyası ilə münasibətlər Azərbaycanın xarici siyasətində çox mühüm yer tutur. Siz dediyiniz kimi, bütün istiqamətlər üzrə müsbət dinamika müşahidə edirik. Dövlətlər səviyyəsində müntəzəm siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir. Siz qeyd etdiyiniz kimi, iqtisadi əməkdaşlıq artıq öz bəhrələrini verir və bu, çox sevindirici haldır.

Qeyd etmək istəyirəm ki, Rusiyadan ölkəmizə gələn turistlərin sayı durmadan artır. Keçən il 900 min rusiyalı Azərbaycana səfər edib. Bu il biz həmin göstəricinin artacağını gözləyirik.

Əlbəttə, humanitar sahədə münasibətlərimizi xüsusi qeyd etmək istəyirəm. Hesab edirəm ki, bu münasibətlər nümunəvidir. Siz bilirsiniz ki, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə çox böyük hörmət bəsləyirlər. Respublikamızın paytaxtında M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Moskva Dövlət Birinci Tibb Universitetinin filialları çox uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə həyata keçirilməsinə başlanıb. Azərbaycanda 338 məktəbdə tədris rus dilində aparılır, 14 dövlət ali məktəbində rusdilli bölmə fəaliyyət göstərir. Rusiyada 11 min azərbaycanlı tələbə təhsil alır və əlbəttə ki, Azərbaycanın çoxminlik rus icması ölkəmizin ümumi inkişafına öz layiqli töhfəsini verir.

Dəvətə, səmimi qəbula, qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkür edirəm. Əminəm ki, Azərbaycan-Rusiya münasibətləri Azərbaycan və Rusiya xalqlarının rifahı naminə bundan sonra da uğurla inkişaf edəcək.

❖ ❖ ❖

**Rusiya Prezidenti Vladimir PUTİN** dedi:

- Hörmətli Mehriban Arif qızı.

Bilirsiniz ki, təntənəli hissəyə keçmək nəzərdə tutulurdu, lakin hər halda Sizin indicə dediyiniz məqama reaksiya verməyə bilmərəm. Bu, xüsusən bizim humanitar əlaqələrə və Azərbaycanda rus dilinə münasibətə aiddir. Həqiqətən bu, keçmiş Sovet İttifaqı ölkələrindən, keçmiş Sovet İttifaqı respublikalarından biridir ki, orada, - biz bunu hiss edirik, - rus mədəniyyətinə, rus dilinə münasibət ən yüksək səviyyədə saxlanılır. Bilirəm ki, Siz şəxsən bu işdə daim fəal iştirak edirsiniz. Prezident də bunu dəstəkləyir. Biz bunu çox yüksək qiymətləndiririk. Ona görə ki, bu baza bizim bütün başqa istiqamətlərdə münasibətləri, o cümlədən iqtisadi və humanitar əlaqələri, sözün geniş mənasında, inkişaf etdirməyə imkan verir. Buna görə biz Sizə çox təşəkkür edirik və öz tərəfimizdən bu trendi dəstəkləmək üçün nə lazımdırsa edəcəyik. Hesab edirəm ki, bu, bizim ümumi sərvətimizdir. Ona görə ki, bu, insanların öz aralarında hər hansı sədlər və maneələr olmadan ünsiyyət saxlamalarına, həm şəxsiyyətlərarası, həm də dövlət səviyyəsində münasibətləri inkişaf etdirməyə imkan verir.



**Birinci vitse-prezident Mehriban ƏLİYEVA:**

- Sözsüz belədir, Vladimir Vladimiroviç. Bu, Azərbaycanda dövlət siyasətidir. Düşünürəm ki, biz gələcəkdə bu sahəyə daha çox diqqət yetirməliyik. Ona görə ki, gənc nəsil böyüməkdədir. Bizim nəslin ortaq kökləri, ortaq tarixi var. Gənc nəsil böyüyür. Ona görə də insanlar arasında, xüsusən gənc nəsil arasında humanitar sahədə bu gün mövcud olan əlaqələrin qorunub saxlanması və bu əlaqələrin daha da möhkəmlənməsi lazımdır.

**Prezident Vladimir PUTİN:**

- Azərbaycan Prezidentinə ən xoş arzularımı çatdırın. Ümidvaram ki, onunla dekabrın 20-də Peterburqda görüşmək şərəfinə nail olacağam.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA:**

- Sağ olun. Dəvət üçün sağ olun.

**Prezident Vladimir PUTİN:**

- Mənə icazə verin, artıq xatırlatdığım xoş təntənəli hissəyə keçim. Siz özünüz də bunu dediniz. Mən əvvəlcə bunu demək istərdim. Əlbəttə, bu dövlət mükafatı, bu “Dostluq” ordeni bir tərəfdən, sanki formal hissə, formal məsələdir, lakin digər tərəfdən, Sizin diqqətinizi ona cəlb etmək istəyirəm ki, bu, düşünülmüş qərardır. Sadəcə, Sizin bizə gəldiyinizə görə yox, Sizin Azərbaycanda ali vəzifəli şəxslərdən biri olduğunuza görə yox. Bu, Sizin işinizlə, Sizin fəaliyyətinizlə, dövlətlərarası əlaqələrin bugünkü yüksək səviyyədə saxlanması ilə bağlıdır. Biz bunu çox yüksək qiymətləndiririk. Ordenin adı Sizin Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafı üçün gördüyünüz işləri əks etdirir. Onun adı belə də səslənir: “Dostluq” ordeni. Sizin işinizə görə və bu dostluğa görə çox sağ olun.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA:**

- Sizə təşəkkür edirəm.

Sonra Rusiya Federasiyası Prezidentinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya-Azərbaycan münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə “Dostluq” ordeni ilə təltif olunması haqqında Fərmanı oxundu.

Rusiya Prezidenti Vladimir Putin “Dostluq” ordenini Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim etdi.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA dedi:**

- Bu ordenə görə dərin təşəkkürümü bildirmək istəyirəm. Siz öz təbrik məktubunuzda məni Rusiyanın əsl dostu adlandırmısınız. Deməliyəm ki, Rusiya Federasiyasının Prezidentindən bu cür qiymət eşitmək mənim üçün böyük şərəfdir. Çox şadam ki, bizim strateji tərəfdaşlığın möhkəmləndirilməsi işinə mənim də cüzi töhfəm var. Çox sağ olun.

**Prezident Vladimir PUTİN:**

- Təşəkkür edirəm.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA:**

- Sağ olun.

# Azərbaycanın Birinci vitse-prezidenti və Rusiya Federal Məclisi Federasiya Şurasının sədri birgə şam ediblər





AZƏRTAC xəbər verir ki, noyabrın 22-də Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko birgə şam ediblər.

# Baş Nazir Əli Əsədov Londonda Avropa Yenidənqurma və İnkişaf Bankının Şərq Tərəfdaşlığı İnvestisiya Sammitində iştirak edib

Noyabrın 22-də Böyük Britaniyanın paytaxtı London şəhərində Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Şərq Tərəfdaşlığı İnvestisiya Sammiti keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov AYİB-in mənzil-qərargahında keçirilən Sammitdə iştirak edib.

Sammit çərçivəsində Baş Nazir Əli Əsədov Ukraynanın Baş Naziri Aleksey Qonçaruk, Moldovanın Baş Naziri İon Kiku və Avropa Yenidənqurma və İnkişaf Banının prezidenti Suma Çakrabarti ilə ikitərəfli görüşlər keçirib.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlıq Sazişi və Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Azərbaycanın Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Regional Tərəfdaşlıq Fondunda iştirakı ilə əlaqədar ianə haqqında saziş imzalanıb.





# Azərbaycan Milli Məclisinin Sədri MDB Parlament Assambleyasının yubiley sessiyasında iştirak edib

Noyabrın 22-də Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Sankt-Peterburqun Tavriya sarayında MDB Parlament Assambleyasının 50-ci yubiley sessiyasında iştirak edib.

Milli Məclisin mətbuat katibi Akif Təvəkküloğlunun AZƏRTAC-a verdiyi məlumata görə, tədbiri açan qurumun Sədri, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Sədri Valentina Matviyenko iclas iştirakçılarını əlamətdar yubiley münasibətilə təbrik edərək sessiyanın işinə uğurlar arzulayıb. Sonra MDB PA-nın yaranma tarixi və inkişaf yolu barədə sənədli film nümayiş etdirilib.

Sessiyada normativ hüquqi aktlar, parlamentarilərin statusu ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi, ekoloji zərərin hesablanması, sosial turizm, reklam haqqında model qanunlar, ekoloji təhlükəsizlik üzrə milli mərkəzlərin yaradılması, MDB PA-nın növbəti il üçün fəaliyyət istiqamətləri barədə məsələlərə baxılıb. Tədbirdə çıxış edənlər müzakirə olunan sənədlər barədə öz qeyd və təkliflərini bildiriblər.

Azərbaycan parlamenti nümayəndə heyətinin Sankt-Peterburqa səfəri noyabrın 22-də başa çatıb.





# Azərbaycanın Baş Naziri Londonda BP şirkətinin hasilat üzrə icraçı direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov noyabrın 22-də Londonda BP şirkətinin hasilat üzrə icraçı direktoru Bernard Luni ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə BP şirkəti arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olunub.

# Yeni ombudsman seçiləcək

Milli Məclisdə Azərbaycanın yeni İnsan hüquqları üzrə müvəkkili seçiləcək. Bu barədə parlamentin İnsan hüquqları komitəsinin dünən keçirilən iclasında Milli Məclis Sədrinin müavini, komitənin sədri Bahar Muradova məlumat verib.

Bahar Muradova qeyd edib ki, Milli Məclisə "Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) seçilməsi haqqında" qanun layihəsi daxil olub. Sənəddə yeni ombudsmanın seçilməsi üçün 3 nəfərin - Bakı Apelyasiya Məhkəməsinin hakimi Kəmalə Nəbi qızı Abıyevanın (16.05.1979-cu il), Konstitusiya Məhkəməsi Aparatı rəhbərinin müavini Səbinə Yaşar qızı Əliyevanın (06.10.1980-ci il) və Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatı İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kəmalə Zakir qızı Əliyevanın (06.10.1980-ci il) namizədliyi irəli sürülüb.

Azərbaycanda ombudsman təsisatının formalaşmasının tarixindən söz açan Bahar Muradova bildirib ki, ölkəmizdə bu institutun yaradılması müstəqillik əldə edildikdən sonra ötən illər ərzində qazandığımız ən böyük nailiyyətlərdən biridir: "1993-cü ildə Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ölkədə insan hüquqlarının qorunması, qanunvericilik bazasının yaradılması istiqamətində ciddi işlər həyata keçirdi. Ombudsman institutu yaradıldı. Ombudsman Elmira Süleymanova Azəbaycanda insan hüquqlarının qorunması işinə çox böyük töhfə verdi. Onun fəaliyyəti bir çoxlarına örnək oldu. Elmira xanım Azərbaycanın ilk ombudsmanı kimi tarixə düşdü".

Ombudsman Elmira Süleymanovaya Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində gördüyü işlərə görə təşəkkür edən Bahar Muradova bildirdi ki, yeni namizədlər Prezident İlham Əliyevin böyük etimad göstərdiyi şəxslərdir. Hər üç xanım namizəd bu vəzifənin öhdəsindən gəlməyə qadirdir: "İnanırıq ki, seçilən namizəd dövlət başçısının etimadını doğruldacaq və Azərbaycanda insan hüquqlarının qorunması işinə praktik olaraq müsbət töhfə verəcək".

Müzakirələr zamanı çıxış edən deputatlardan Hikmət Məmmədov, Elman Nəsirov, Tahir Kərimli, Flora Qasımova, Sona Əliyeva, Naqif Həmzəyev çıxış edərək ombudsman Elmira Süleymanovanın indiyədək gördüyü işləri yüksək dəyərləndirib, yeni namizədlərə uğurlar arzulayıblar.

Namizədlərdən Səbinə Əliyeva və Kəmalə Əliyeva çıxış edərək ombudsman seçiləcəkləri təqdirdə vəzifələrində vicdanla calışacaqlarını, Prezident İlham Əliyevin onlara göstərdiyi böyük etimadı doğrultmaq üçün əllərindən gələni əsirgəməyəcəklərini söylədilər.

Sonda sənəd Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Moskvada X Rusiya-Azərbaycan Regionlararası Forumu işə başlayıb

**Moskvada X Rusiya-Azərbaycan Regionlararası Forumu işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, forum çərçivəsində təşkil olunmuş Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının geniş iclasında Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov, Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin, Azərbaycan-Rusiya İşgüzar Şurası İdarə Heyətinin sədri Səməd Qurbanov və Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repik çıxış ediblər.

Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin çıxışında qeyd edib ki, Azərbaycan bir sıra məhsulların ixracına görə Rusiya bazarında lider mövqedədir. O, Rusiyanın 70 regionunun Azərbaycanla əməkdaşlıq etdiyini və bu regionlardan 30-nun nümayəndələrinin X foruma qatıldığını qeyd edərək bildirib ki, bu, Azərbaycan iqtisadiyyatının Rusiyada mövqeyinin möhkəmləndirilməsi üçün böyük perspektivlərə malik olmasından xəbər verir. Maksim Oreşkin cari ilin 9 ayı ərzində Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsinin 26 faiz artdığını, pul köçürmələri, turizm və digər sahələrdə də əməkdaşlığın genişləndiyini vurğulayıb. Nazir dekabrda Bakıda Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının növbəti iclasının keçiriləcəyini, bir sıra mühüm sənədlərin imzalanacağını da diqqətə çatdırıb.

Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov Rusiyanın indiyədək Azərbaycan iqtisadiyyatına 5 milyard dollar, ölkəmizin isə Rusiya iqtisadiyyatına 1 milyard 200 milyon dollar investisiya yatırdığını qeyd edib. Azərbaycanda dövlət tərəfindən sahibkarlara yüksək səviyyədə dəstək verildiyini, bu sahədə xüsusi qanunvericiliyin, ixtisaslaşdırılmış sənaye parklarının, texnoparkların yaradıldığını, güzəştli kredit sisteminin, fiziki şəxslər üçün vergi güzəştlərinin tətbiq edildiyini vurğulayan Mikayıl Cabbarov hazırda kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracı ilə yanaşı, Azərbaycan sərmayədarlarının bu ölkədə lokal istehsala investisiya qoyduqlarını da diqqətə çatdırıb. Nazir Azərbaycanda rus dilinə qayğıdan danışıb, ölkəmizdə Rusiya ali məktəblərinin filiallarının açılması və digər mövzulara da toxunub.






Azərbaycan-Rusiya İşgüzar Şurası İdarə Heyətinin sədri Səməd Qurbanov Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar şuralarının 2020-ci il üçün birgə fəaliyyət planı işləyib hazırladıqlarını bildirib. Fəaliyyət planına qarşılıqlı biznes missiyaları, sərgilər, böyük iqtisadi tədbirlərdə biznes dialoqlar və s. daxil edilib. Səməd Qurbanov vurğulayıb ki, regionların əməkdaşlığı ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsində xüsusi rol oynayır. Rusiyanın 80-ə yaxın subyektinin Azərbaycan ilə iqtisadi əlaqələr yaratdığını deyən İdarə Heyətinin sədri əmin olduğunu bildirib ki, hazırkı forum bu münasibətlərin genişlənməsinə töhfə verəcək.

Forum işini "Sənaye sahəsində əməkdaşlıq", "Kənd təsərrüfatında qarşılıqlı fəaliyyətin perspektivləri", "Turizm sahəsində əməkdaşlığın inkişafı", "Humanitar sahədə əməkdaşlıq" mövzularında "dəyirmi masa"larla davam etdirib.

İki gün davam edəcək tədbirdə Azərbaycan və Rusiyanın dövlət rəsmiləri, deputatlar, biznes dairələrinin nümayəndələri iştirak edirlər.

Bu gün forum işini Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi-Kompleksindəki "Kosmos" pavilyonunda davam etdirəcək. Həmin gün, həmçinin "Azərbaycan" pavilyonunun açılışı olacaq.

# Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov Moskvada bir sıra işgüzar görüşlər keçirib





Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov noyabrın 22-də Moskvada Rusiyanın sənaye və ticarət naziri Denis Manturovla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə 2019-cu ilin yanvar-sentyabr aylarının nəticələrinə görə, Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsinin 25 faizdən çox artaraq 2,2 milyard ABŞ dollarına çatdığı bildirilib. Avtomobil və maşınqayırma sahələrinin ikitərəfli əməkdaşlığın mühüm istiqamətlərindən olduğunu qeyd edən tərəflər aviasiya sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, əczaçılıq sənayesi və digər sahələrdə əməkdaşlıq məsələlərini də müzakirə ediblər.

Nazir Mikayıl Cabbarov Rusiya Federal Antiinhisar Xidmətinin rəhbəri İqor Artemyev ilə də görüşüb. Rusiyada antiinhisar xidmətinin fəaliyyət istiqamətləri və görülən işlər haqqında Azərbaycanın İqtisadiyyat nazirinə ətraflı məlumat verən İ.Artemyev bu sahədə ölkəmizin müvafiq qurumları ilə əməkdaşlığın inkişafında maraqlı olduqlarını diqqətə çatdırıb.

Hər iki görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi, habelə qarşılıqlı təcrübə mübadiləsi ilə bağlı fikir mübadiləsi aparılıb. Mikayıl Cabbarov Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, biznes-investisiya mühiti, antiinhisar siyasəti sahəsində görülən işlər və sair barədə geniş məlumat verib, Rusiya-Azərbaycan əməkdaşlığının böyük potensialı olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı strateji əməkdaşlığın intensivləşdirilməsi, iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi üçün hər iki dövlətin məsul qurumlarının səyləri artıracaqlarına əminlik ifadə edilib.

# Təhsil naziri Ceyhun Bayramov valideynlərlə görüşüb

Noyabrın 22-də Təhsil naziri Ceyhun Bayramov Bakı şəhəri 72 nömrəli məktəb-liseydə bir qrup valideynlə görüşüb.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir ümumi təhsil müəssisələrində məktəb proqramının yüklülüyü, şagird sıxlığı, növbəlilik, şagirdlər və şagird-müəllim-valideyn arasında olan münasibətlər, yeməkxanalara nəzarət və məktəbin fəaliyyəti ilə bağlı digər məsələləri valideynlərlə müzakirə edib.



Ceyhun Bayramov müvafiq istiqamətlərdə nazirlik tərəfindən həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. Nazir, həmçinin məktəb-valideyn əməkdaşlığı, uşaqların tədris nailiyyətlərində valideynlərin rolu, məktəbdənkənar fəaliyyətin önəmini vurğulayıb.

Görüşdə nazir valideynləri maraqlandıran sualları cavablandırıb, onların rəy və təkliflərini dinləyib.

Qeyd edək ki, yeni tədris ilindən Təhsil naziri məktəblərdə valideynlərlə mütəmadi görüşlər keçirir.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Moskvada ikitərəfli görüşlər keçirib













Noyabrın 22-də Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla Əliyeva Rusiya Federasiyasına səfəri çərçivəsində Gənclərlə İş üzrə Federal Agentliyin rəhbəri Aleksandr Buqayev və "Vahid Rusiya" Partiyasının "Gənc Qvardiya" təşkilatı ilə ikitərəfli görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, qurumlar arasında əməkdaşlıq və qarşılıqlı faydalı əlaqələrin inkişafı, Rusiyada yaşayan azərbaycanlı gənclərin bu ölkənin ictimai, siyasi, mədəni həyatında daha yaxından və fəal iştirakı, onların Rusiya cəmiyyətinə inteqrasiyasının təmin edilməsi məsələləri görüşlərin əsas müzakirə mövzusu olub.

Görüşlərdə, həmçinin istedadlı və ictimai fəal gənclərin innovativ ideya və təşəbbüslərinin təşviqi, gənc sahibkarların işgüzar fəaliyyətinin, o cümlədən onların təklif etdikləri startap layihələrinin dəstəklənməsi, eyni zamanda, forumlar, sərgilər və digər kütləvi tədbirlərdə birgə iştirakın təmin olunması sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, sağlam həyat tərzinin təbliği və onların intellektual potensialının artırılması sahəsində birgə tədbirlərin həyata keçirilməsi təklif olunub.

Gənclərin məşğulluğu mövzusuna toxunan tərəflər azərbaycanlı gənclərin Rusiyada işlə təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilə biləcək tədbirlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Azərbaycanda və Rusiyada həyata keçirilən dövlət gənclər siyasəti sahəsində əldə olunan nailiyyətlər, bu sahədə təcrübə mübadiləsinin, qarşılıqlı əlaqələrin inkişafı da müzakirə edilən mövzular arasında olub.

# Azərbaycanın Dövlət Sərhəd Xidməti ilə Bolqarıstanın Daxili İşlər Nazirliyi arasında saziş imzalanıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



DSX-nin Mətbuat Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Sərhəd Xidmətinin Aparatında təntənəli mərasimlə qarşılanan Bolqarıstanın Daxili İşlər naziri rəsmi protokola uyğun olaraq Fəxri qonaq kitabında ürək sözlərini yazıb.

Geniş tərkibdə keçirilmiş görüşdə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədlərindəki mövcud əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə olan təhdidlər, o cümlədən Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, bu ərazilərin qeyri-qanuni məqsədlərlə istifadə hallarının davam etdirilməsi qeyd olunub, transsərhəd cinayətkarlıqla mübarizədə həyata keçirilmiş tədbirlər, sərhəd mühafizə sisteminin gücləndirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər barədə məlumat verilib.

Nümayəndə heyətləri regionda cərəyan edən hadisələr, sərhəd təhlükəsizliyinə olan çağırışlar ətrafında fikir mübadiləsi aparıb, transsərhəd cinayətkarlığın təzahürləri ilə mübarizənin aparılması, sərhəd mühafizəsi və nəzarəti sahəsində praktiki fəaliyyətlərin, aidiyyəti sahələr üzrə təcrübə mübadiləsinin həyata keçirilməsi daxil olmaqla sərhəd əməkdaşlığının inkişaf etdirilməsinin Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında mövcud münasibətlərə əhəmiyyətli töhfə verə biləcəyini vurğulayıblar.

Görüş çərçivəsində "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Bolqarıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında sərhəd məsələləri üzrə əməkdaşlıq haqqında Saziş" imzalanıb.

# *Dmitri SAVELYEV:* "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu foruma gəlişi tədbirin əhəmiyyətini bir daha vurğulayır"

Son bir neçə ildə Rusiya ilə Azərbaycan arasında iqtisadi, siyasi və mədəni sahələrdə münasibətlər intensiv inkişaf edir.

AZƏRTAC xəbər verir ki, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, RF Dövlət Dumasının deputatı Dmitri Savelyev bu sözləri Moskvada keçirilən Rusiya-Azərbaycan regionlararası forumunun gedişində AZƏRTAC-a müsahibəsində söyləyib. O qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu foruma gəlişi tədbirin əhəmiyyətini bir daha vurğulayır.



D.Savelyev deyib: "Azərbaycan Rusiyanın ən etibarlı, mən deyərdim ki, yeganə etibarlı tərəfdaşıdır. Bu forumun Moskvada keçirilməsi bizim üçün çox vacibdir. Azərbaycan Moskvada keçirilən nəqliyyat forumunda da iştirak edib". Turizm sahəsində əməkdaşlığın vacibliyini qeyd edən rusiyalı deputat deyib: "Turizm ölkələrimiz arasında ikitərəfli münasibətləri möhkəmləndirməyə kömək edən çox mühüm sahədir. Azərbaycana səfər edən rusiyalıların sayı nə qədər çox olsa, onlar Azərbaycanı bir o qədər çox sevəcəklər. Ruslarda belə bir məsəl var: "On dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdır". Bir dəfə Azərbaycanda olan rusiyalılar sonra ona laqeyd qalmırlar. Bu, çox vacibdir".

# *Sahib ƏLƏKBƏROV:* "Velosipedçilərimizin Olimpiya Oyunlarına ilk milli lisenziya qazanmasından qürur hissi keçiririk"

Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin (UEC) Direktorlar Komitəsinin üzvü Sahib Ələkbərov ölkəmizdə velosiped idmanının inkişafı və qarşıdakı hədəflər barədə AZƏRTAC-ın müxbirinin suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.



*- Sahib müəllim, ilk növbədə sizi Azərbaycanın şose velosipedi üzrə yığma komandasının "Tokio-2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanması münasibətilə təbrik edirik. Əvvəlki illərlə müqayisədə bu dəfə lisenziyanın qazanılması prosesində hər hansı dəyişikliklər var idimi?*

- Təbrikinizə görə çox sağ olun. Təbii ki, Tokioya yollanacaq Azərbaycan nümayəndə heyətinin tərkibində velosipedçimizin də olacağından qürur hissi keçiririk. Bu lisenziyanı qazanmaq əvvəlki illərlə müqayisədə daha çətin oldu. Məsələ burasındadır ki, əgər "Rio-2016" Yay Olimpiya Oyunlarının kişilər arasında şose velosipedi yarışında 150 idmançı çıxış etmişdisə, Tokioda cəmi 130 şose velosipedçisi olacaq. İştirakçı sayının 20 nəfər azalması, təbii ki, mübarizəni daha da gərginləşdirdi. Olimpiadaya lisenziya xalları verən yarışlar ötən ilin oktyabrından başlamaqla bir il davam etdi və bu müddət ərzində Beynəlxalq Velosipedçilər İttifaqına (UCI) üzv olan 196 milli federasiyadan 115-i bu yarışlara qatıldı. Reqlamentə görə, dünya reytinqinin ilk 50 pilləsində qərarlaşan ölkələr arzuolunan lisenziyalara sahib çıxa bilərdilər. Yığma komandamızın üzvləri Elçin Əsədov, Samir Cəbrayılov, Musa Mikayılzadə, Mikayıl Səfərli və Mahmud Məmmədov baş məşqçi Əbülfəz Məmmədovun rəhbərliyi altında lisenziya xalları verən nüfuzlu beynəlxalq yarışlarda 894 xal toplaya bildilər və komandamız dünya reytinq cədvəlində 44-cü pillədə qərarlaşaraq "Tokio-2020" Yay Olimpiya Oyunlarına vəsiqə qazandı. Bu, federasiyamız üçün çox böyük uğurdur. Fürsətdən istifadə edərək, həmişə olduğu kimi, bu məsələdə də bizə dəstək verən Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə və bütün velosiped həvəskarlarına dərin minnətdarlığımı bildirmək istərdim.

*- İdmançıların adlarını çəkən zaman bir məqam diqqətdən yayınmadı. Görünən qədərilə "London-2012" və "Rio-2016" Yay Olimpiya Oyunlarından fərqli olaraq, bu dəfə dördilliyin zirvə yarışında dəvət olunmuş legioner idmançı ilə deyil, Azərbaycan velosiped məktəbinin yetirməsi ilə təmsil olunacağıq.*

- Bəli, hazırda yığma komandamızın üzvlərinin hamısı azərbaycanlıdır, öz velosiped məktəbimizin yetirmələridir. Təbii ki, ilk vaxtlar biz kənardan dəvət olunmuş velosipedçilərin xidmətindən istifadə etməyə məcbur idik və inkişafa başladığımız ilk illərdə bu, tamamilə normal idi. Amma illər ötdükcə görülən işlərin nəticəsi olaraq öz yetirmələrimiz də yüksək nəticələr göstərməyə başladılar. Biz onların bir neçəsinin dünyanın tanınmış kontinental komandalarının tərkibinə salınmasına, habelə Beynəlxalq Velosipedçilər İttifaqının İsveçrədəki Dünya Velosiped Mərkəzində təlimlərə cəlb olunaraq təcrübə qazanmalarına nail ola bildik və nəticələr də özünü çox gözlətmədi. Həqiqətən də velosiped idmanında bu, bizim ilk milli olimpiya lisenziyamızdır və son illər qarşılaşdığımız bəzi çətinliklərə rəğmən belə nəticəyə nail olmağımız bizi çox sevindirir.

*- Avropa Velosipedçilər Birliyinin Direktorlar Komitəsinin 7 üzvündən biri kimi qısaca olaraq oxucularımıza beynəlxalq qurumlarda velosiped idmanının daha da inkişaf etdirilməsi istiqamətində hansı işlər həyata keçirildiyi barədə məlumat verərdiniz.*

- Hazırda Avropa Velosipedçilər Birliyinin Direktorlar Komitəsində 50 ölkə tərəfindən seçilmiş, İsveçrədən olan federasiya prezidenti, Böyük Britaniya, Almaniya, Danimarka, Rusiya, Polşa ilə yanaşı, Azərbaycan da təmsil olunur və Avropada velosiped idmanının inkişafı ilə bağlı mühüm qərarlar qəbul edilərkən bizim ölkəmizin də mövqeyinin nəzərə alınması böyük əhəmiyyət daşıyır.

Bir neçə gün bundan əvvəl İtaliyada Avropa və Beynəlxalq Velosipedçilər birliklərinin direktorlar komitələrinin birgə iclası keçirildi və həmin tədbirdə, sözün yaxşı mənasında, gərgin və səmərəli müzakirələr apardıq. Hazırda Beynəlxalq Velosipedçilər İttifaqının bəzi nümayəndələrində velosiped idmanının peşəkarlaşdırılmasına yönəlmiş meyillər artmaqdadır və onların diqqəti daha çox yüksək kateqoriyalı turnirlərə, dünya turu səviyyəsində olan yarışlara yönəlib. Təbii ki, bu, reklam, marketinq, sponsor marağı və TV yayımdan əlavə gəlirlər cəlb edilməsi nöqteyi-nəzərindən başadüşülən addımdır. Amma Avropa Velosipedçilər Birliyinin mövqeyi belədir ki, yuxarıda qeyd olunan meyillər artarsa, digər kateqoriyalı yarışlara, xüsusilə də həvəskarlar arasında təşkil edilən turnirlərə olan böyük maraq azala bilər. Təkcə bir misalı diqqətinizə çatdırmaq istərdim. Birgə iclas ərəfəsində İtaliyada velo-kross üzrə Avropa çempionatı keçirilirdi və bu yarışda peşəkarlarla yanaşı həvəskarlar da iştirak edirdilər, 17 yaş qrupunda, həm kiçik yaşlı idmançıların, həm də yaşı 70-dək olan velosipedçilərin gərgin mübarizəsini izləmək olduqca maraqlı idi. Onu da qeyd etmək lazımdır ki, 400-ə yaxın həvəskar iştirakçının hər biri yarışa qatılmaq üçün 45 avro ödəniş etmişdi. Tamaşaçı marağı da olduqca yüksək idi və hər gün azarkeşlər 10 avrosundan keçməklə palçıqlı yollarda (həmin günlər yarış keçirilən bölgədə leysan yağışlar yağırdı və Venesiya şəhəri suyun altında qalmışdı) onlara maraqlı mübarizə təklif edən həvəskarları böyük coşqu ilə izləyirdilər. Yəni bu, bir daha göstərir ki, beynəlxalq idman qurumları təkcə peşəkarların deyil, həm də həvəskarların marağını nəzərə almalıdır. Digər tərəfdən, kütləvilik təmin olunmadan ancaq böyük idmanın inkişafı gələcəkdə problemlərə gətirib çıxara bilər.

*- Qeyd etdiyiniz məsələlərlə bağlı, yəni velosipedin populyarlaşdırılması istiqamətində ölkəmizdə bu vaxta qədər görülən işlər sizi qane edirmi?*

- Çox da uzağa getməsək belə, danılmaz faktdır ki, cəmi 10 il bundan qabaq küçələrimizdə velosiped sürən insanlara çox az rast gəlinirdi. Velosiped idmanının inkişafı ilə bağlı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2011-ci ildə verdiyi göstərişlərdən sonra ölkəmizdə bu sahədə də ciddi dəyişikliklər baş verməyə başladı. Ölkəmizin tarixində ilk dəfə 2012-ci ildə 23 yaşadək gənclər arasında beynəlxalq velosiped yarışı keçirildi. Növbəti il "Tour d'Azerbaidjan" beynəlxalq veloturu təşkil edildi və bu yarışın Azərbaycanın dünyada tanıdılması və ölkəmizdə velosiped mədəniyyətinin formalaşmasında böyük rolu oldu. Ardıcıl beş il ərzində keçirilən bu yarış Azərbaycanda velosipedə marağı artırmaqla yanaşı, ölkəmizi bütün dünyada bir velosiped ölkəsi kimi də tanıtdırdı. 2018-ci ildə Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatı keçirildi ki, bunun özü də çox böyük uğurdur. Ölkədə velosiped yollarının çəkilməsi prosesi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən ilin dekabrında imzaladığı dövlət proqramına salınıb və bu istiqamətdə işlər görülməyə başlanıb. Yəni bütün bunlar hamısı bir-biri ilə sıx əlaqəlidir.

Federasiyamız müntəzəm olaraq müxtəlif yarışlar, habelə digər qurumlarla birlikdə paytaxtda və regionlarda veloyürüşlər təşkil edir ki, bu da insanların bu idmana olan marağını daha da artırır. Bu yaxınlarda Regionların İnkişafı İctimai Birliyi ilə Gəncədə keçirdiyimiz veloyürüşə min nəfərdən çox velosipedçi qatılmışdı. Azərbaycan Gənclər Fondu ilə birlikdə Biləsuvar, Şəmkir, Qazax, həmçinin Salyan və Lənkəranda keçirilən veloyürüşlərdə də regionlarda velosipedə marağın sürətlə artdığının şahidi olduq. Son illər Milli Olimpiya Komitəsi və Təhsil Nazirliyinin birgə təşkil etdikləri "Olympic Moves" hərəkatını xüsusi qeyd etməliyəm ki, bu layihə çərçivəsində də velosiped yarışlarına minlərlə yeniyetmə cəlb olunur. Diqqətəlayiq haldır ki, xanımlar və gənc qızlar arasında velosipedə maraq gözlənildiyindən daha artıq sürətlə artmaqdadır. Bütün bunlar göstərir ki, ölkəmizdə yeni bir reallıq, dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində mövcud olan velosiped mədəniyyəti sürətlə formalaşmaqdadır.

*- Qeyd etdiyiniz məsələlərin daha da səmərəli olması üçün lazımi infrastrukturun yaradılması da əsas məsələlərdən biridir.*

- Əlbəttə, infrastruktur olmasa, böyük və sürətli inkişafa nail olmaq çətindir. Velosiped yolları ilə bağlı az əvvəl danışdıq və təbii ki, ölkəmizdə velosiped yollarının uzunluğu artdıqca velosipeddən nəqliyyat vasitəsi kimi istifadə edənlərin sayı da artacaq. Bu isə həm ekoloji durumun yaxşılaşmasına, insanlar, xüsusilə gənclər arasında sağlam həyat tərzinin daha geniş yayılmasına, həm də velosiped idmanı ilə məşğul olanların sayının artmasına öz müsbət təsirini göstərəcək. "20 Yanvar" metrostansiyasının yaxınlığında yerləşən Respublika Velotrekində yüksək səviyyəli məşqlər keçmək və idmançı hazırlamaq, habelə trek yarışlarının keçirilməsi üçün hər cür şərait yaradılıb. Paytaxtımızın cənub-qərb girişində yerləşən veloparkın da imkanları bu baxımdan kifayət qədər genişdir. Vaxtilə daş karxanalarının yerləşdiyi bu ərazidə 70-ci illərin əvvəllərində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə salınmış, sonradan baxımsızlıq üzündən bərbad vəziyyətə düşmüş park bizim xahişimiz və dövlətimizin başçısının göstərişi ilə 2013-cü ildə baza kimi federasiyamıza təhkim edildikdən sonra orada xeyli işlər görülüb. Qırx hektara yaxın ərazidə on minlərlə Eldar şamı və zeytun ağacı, çoxlu sayda müxtəlif kollar, güllər əkilib, müasir suvarma sistemi qurulub. Normal təşkil olunmuş qulluq nəticəsində 2013-cü ildə əkilən ağacların hündürlüyü hazırda 3-4 metrə çatır. Veloparkda mütəmadi olaraq iməciliklər təşkil olunur, bu tədbirlərdə Bakı Şəhər İcra Hakimiyyətinin aidiyyəti qurumlarının, müxtəlif şirkətlərin nümayəndələri, universitet tələbələri həvəslə iştirak edirlər. Yeri gəlmişkən, həmin qurumların rəhbərlərinə, veloparkın bugünkü vəziyyətə gətirilməsində əməyi olanların hamısına dərin minnətdarlığımı bildirirəm. Ərazidə müxtəlif yaş qruplarından olan idmançılar üçün ümumi uzunluğu 6 kilometrə çatan 4 velosiped marşrutu yaradılıb. Veloparkda müntəzəm olaraq yarışlar keçirilir, həvəskarlar orada velosiped sürməyi öyrənir, insanlar rahat şəkildə istirahət edirlər. Bir qədər əvvəl də, qeyd etdiyim kimi, veloparkın ərazisində tikilmiş, ən müasir tələblərə cavab verən beynəlxalq səviyyəli BMX stadionunda keçən il BMX üzrə dünya çempionatı keçirilib.

*- 2019-cu il artıq başa çatır. Gələn il üçün əsas planlarınız nədən ibarət olacaq?*

- İlk növbədə "Tokio-2020" Yay Olimpiya Oyunlarında ölkəmizin layiqincə təmsil olunması üçün hazırlıq prosesinə ciddi diqqət yetiririk. Hazırda gələn il üçün yarışların təqvimi hazırlanır və idmançılarımızı həm ölkədaxili, həm də beynəlxalq yarışlara hazırlamaq üçün lazımi işləri görürük. Kütləviliyin təmin edilməsinə nail olmaq gələn il üçün də başlıca məqsədimiz olacaq. Çalışacağıq ki, velosiped sürmək insanlarımızın həyat tərzinə çevrilsin.

# "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində ABŞ-ın davamlı dəstəyi təqdirəlayiqdir

Energetika naziri Pərviz Şahbazov ABŞ-a səfəri çərçivəsində Prezident Donald Tramp tərəfindən Birləşmiş Ştatların enerji katibi vəzifəsinə namizədliyi irəli sürülmüş Dan Brullet ilə görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə enerji sahəsində əməkdaşlığın, eləcə də Birləşmiş Ştatların Azərbaycanın həyata keçirdiyi enerji layihələrinə davamlı dəstəyinin iki ölkə arasında münasibətlərin inkişafına, regional və qlobal təhlükəsizliyə töhfələri müzakirə edilib.

Nazir nəhəng infrastruktur və enerji təhlükəsizliyi layihəsi olan "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində ABŞ-ın davamlı dəstəyinin təqdirəlayiq olduğunu bildirib. Görüşdə həmçinin energetika sektorunda islahatlar prosesindən bəhs edilib. "Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 may 2019-cu il tarixli sərəncamı energetika sektorunda əsaslı dəyişiklikləri təmin edən strateji sənəd kimi qeyd olunub, bərpaolunan enerji sahəsinin inkişafı, enerji səmərəliliyi və liberal bazar modelinə keçidlə bağlı hazırlanan təkliflər, görülən işlər barədə məlumatlar diqqətə çatdırılıb.



D.Brullet isə "Əsrin müqaviləsi" imzalanan vaxtdan indiyə kimi Azərbaycanın Xəzəri dünyaya inteqrasiya edən çoxsaylı qlobal enerji təşəbbüslərini yüksək qiymətləndirib. "Cənub qaz dəhlizi"nin enerji təhlükəsizliyində mühüm rolunu vurğulayan ABŞ rəsmisi ölkəsinin bu layihə ilə yanaşı, Azərbaycanın islahat xarakterli yeni enerji siyasəti kursu ilə də əlaqəli mümkün dəstəyini və köməyini diqqətə çatdırıb.

# Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artır

## Dövlətimizin dünya birliyində mövqeyi möhkəmlənir

*Əvvəli 1-ci səh.*



Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur. Qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır.

Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illərdə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə göstərilən hörmət, inam və etimadın təzahürüdür. Bununla bağlı Prezident İlham Əliyev demişdir: "Son 16 il ərzində Azərbaycanda sürətli inkişaf dövrü yaşanır. Bu inkişaf özünü bütün sahələrdə büruzə verir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Bu gün biz dünya miqyasında çox böyük hörmətə layiq ölkə kimi öz fəaliyyətimizi aparırıq. Qoşulmama Hərəkatının bu yaxınlarda Bakıda keçirilmiş Zirvə Görüşü bunu bir daha təsdiqlədi. Biz artıq BMT-dən sonra dünya miqyasında ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edirik və üç il ərzində sədrliyi davam etdirəcəyik. Bu sədrlik 120 ölkənin rəyi əsasında yekdil qərarla əldə edilibdir. Yəni bu, onu göstərir ki, dünya birliyinin ən azı üçdəiki hissəsi Azərbaycanı dəstəkləyir və bizim siyasətimizə böyük qiymət verir".

Bu günlərdə Bakı daha bir mötəbər tədbirə - Dünya dini liderlərinin II Sammitinə evsahibliyi etmişdir. Dünyanın 5 qitəsindən 70-dən artıq dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-yə yaxın yüksək səviyyəli nümayəndəsinin qatıldığı sammitin ölkəmizdə keçirilməsi təbiidir. Çünki Azərbaycanın qədim dinlərarası ənənələri var. Əsrlər boyu ölkəmizdə bütün dinlərin və etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq və qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu birgə yaşayış tərzi dünyanın digər ölkələrinə nümunədir.

2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardım göstərmişdir. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi dünyanın ayrı-ayrı regionlarında yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması və digər sahələrdə layihələr həyata keçirir.

Azərbaycanın müstəqil xarici siyasəti milli maraqlara, ədalətə əsaslanır və ölkəmizə yeni-yeni dostlar qazandırır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi buna bariz nümunədir. TŞ-yə üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfə vermiş və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir.

Azərbaycan BMT TŞ-nin mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara da öz töhfəsini verir. Ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə evsahibliyi edir. Dünyada 200-ə qədər ölkə var və bu ölkələr arasında görüşlər üçün Azərbaycanın seçilməsi müstəqil xarici siyasətimizə hörmətin göstəricisidir.

Dövlətimiz demokratiya, insan hüquq və azadlıqları kimi ali dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri var. Müsəlman Şərqində ilk dəfə demokratik respublika Azərbaycanda qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə hətta əksər Qərb ölkələrindən də irəlidəyik. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Milli iqtisadiyyatımıza 270 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir. Xarici borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir və bu göstəriciyə görə dünyada 9-cu yerdəyik. Ölkədə yoxsulluq 5 faiz səviyyəsindədir. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artmışdır. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır və hər bir ailə təxminən 140 ABŞ dolları ekvivalentində aylıq sosial yardım alır. Bu müddətdə 3200-dən çox məktəb və 640-dan çox xəstəxana və tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir. Bizdə savadlılıq səviyyəsi 100 faizə yaxındır. Üç yüz mindən çox məcburi köçkün pulsuz evlər və mənzillərlə təmin edilmişdir. Məcburi köçkün ailələrinə orta hesabla 180 ABŞ dolları ekvivalentində aylıq müavinət verilir.

Azərbaycan artıq kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən üç peykimiz var. Əhalinin 80 faizi internet istifadəçisidir.

Ölkəmizin əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Dünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Eyni zamanda, Azərbaycan bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində iş aparır. Bununla da Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfə verir.

On bir il əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başlamış "Bakı prosesi" təşəbbüsü BMT tərəfindən də dəstəklənir. BMT-nin Baş katibi Antonio Quterreş "Bakı prosesi"ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir. "Bakı prosesi"nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildənbir ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumu artıq BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviq olunması üçün əsas qlobal platforma kimi tanınmışdır.

Beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfə verməklə Azərbaycanın dünya birliyində nüfuzu, dövlətlərarası münasibətlərdə çəkisi artır. Dövlətimizin yürütdüyü uğurlu daxili və xarici siyasət beynəlxalq aləmdə dəstək və rəğbət qazanır.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# Tokioda Yaponiya ilə Azərbaycanın iqtisadi-ticari əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

Tokioda Azərbaycan ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının və Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin 10-cu birgə iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, iclasa Azərbaycan tərəfdən Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Yaponiya tərəfindən isə komissiyanın həmsədri, "Itochu" korporasiyasının icraçı direktoru Keita İşii həmsədrlik ediblər.

Əvvəlcə Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye nazirinin parlament üzrə müavini Şuci Miyamoto Azərbaycanla Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının və Yaponiya-Azərbaycan İqtisadi Komitəsinin 10-cu birgə iclasının iştirakçılarını salamlamaqdan məmnun olduğunu bildirib. Qeyd edib ki, ikitərəfli münasibətlər çərçivəsində kifayət qədər təcrübəyə malik olan Yaponiya ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq uğurla davam edir. Yaponiya şirkətləri Azərbaycanın karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarına çıxarılmasında, eləcə də digər infrastruktur layihələrində yaxından iştirak edirlər. Tərəflər arasında formalaşmış dostluq münasibətləri qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın bundan sonra inkişaf edəcəyini deməyə əsas verir. Yaponiya Qafqaz regionunun ən inkişaf etmiş ölkəsi olan Azərbaycanla əməkdaşlığın gələcəkdə digər sahələrdə də inkişafında maraqlıdır. İclas zamanı aparılacaq müzakirələrin tərəflər üçün faydalı olacağına əminliyini ifadə edən nazir müavini onun işinə uğurlar arzulayıb.

Yaponiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin digər ölkələr üçün də nümunə ola biləcəyini qeyd edən komissiyanın həmsədri K.İşii yapon şirkətlərinin Azərbaycanın enerji sektorunda və ölkəmizdə həyata keçirilən infrastruktur layihələrində fəal iştirakını vurğulayıb. Yaponiya nümayəndə heyətinin tərkibində dövlət qurumlarının nümayəndələri ilə yanaşı, tanınmış yapon şirkətlərinin də təmsil olunduğunu diqqətə çatdırıb, nəzərdə tutulan məsələlər ətrafında aparılacaq müzakirələrin konkret nəticələrə gətirib çıxaracağına əminliyini bildirib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, Ekologiya və Təbii Sərvətlər naziri M.Babayev qeyd edib ki, son illər Azərbaycanla Yaponiyanın dostluq əlaqələrinin möhkəmlənməsi ilə yadda qalıb. Yaponiyanın ölkəmizin müstəqilliyini tanıyan və ölkəmizlə əlaqələr quran ilk dövlətlərdən biri olduğu, o cümlədən Azərbaycana enerji sahəsində ən çox investisiya yatıran ölkələr arasında olduğu vurğulanıb. Qeyri-neft sektorunun inkişafının Azərbaycan iqtisadiyyatının prioritet istiqaməti olduğunu qeyd edən nazir ölkələrimiz arasında bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcudluğunu da bildirib. Qeyd edib ki, ölkəmizdə kənd təsərrüfatı, nəqliyyat infrastrukturu və turizm sahələrinin inkişafı ilə əlaqədar çoxsaylı layihələr həyata keçirilir. Azərbaycanın əlverişli coğrafi mövqeyi həm Şimal-Cənub, həm də Şərq-Qərb istiqamətlərində nəqliyyat dəhlizlərinin inkişafı üçün geniş imkanlar yaradır. Azərbaycan rəhbərliyinin həyata keçirdiyi nəhəng nəqliyyat-logistika layihələri özünün beynəlxalq əhəmiyyəti ilə diqqəti cəlb edir. Nazir Yaponiya ilə Azərbaycan arasında həmin istiqamətdə əməkdaşlığın inkişaf etdirilməsinin hər iki tərəf üçün faydalı olacağını bildirib.

Çıxış edən Azərbaycan Xarici İşlər nazirinin müavini Ramiz Həsənov Azərbaycan və Yaponiyanın beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına hər zaman öz töhfələrini verdiyini deyib. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinə dair ədalətli mövqeyinə Yaponiyanın dəstəyinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

İclasda Azərbaycanla Yaponiyanın iqtisadi-ticari əlaqələrinin mövcud vəziyyəti, qarşıdakı dövr üçün iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, o cümlədən investisiya, sənaye, ölkəmizdə yaradılan sənaye parklarında və məhəllələrində yapon şirkətlərinin iştirakı imkanları, kənd təsərrüfatı, turizm, nəqliyyat, təhsil, ətraf mühit sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, Azərbaycan məhsullarının Yaponiya bazarına ixracı və bir sıra digər məsələlər ətrafında müzakirələr aparılıb.

Sonra hər iki tərəfdən komissiyada təmsil olunan dövlət və özəl qurumların nümayəndələri təqdimatlarla çıxış ediblər. Təqdimatlar zamanı tərəflər arasında əməkdaşlıq üçün əlverişli imkanların olduğu vurğulanıb.

İclasda ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, su ehtiyatlarından səmərəli istifadə, alternativ və bərpaolunan enerji mənbələri və digər sahələrdə əməkdaşlığın qurulması barədə razılıq əldə edilib.

# Qürur doğuran yüksəliş nümunəsi

*Əvvəli 1-ci səh.*

Bu gün Sumqayıt ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısını duyur və hiss edir. Bu diqqət və qayğının bariz nümunəsi kimi dövlət başçısının 15 ildə Sumqayıta 24 dəfə səfərini göstərmək olar. Bu dövrdə şəhərdə qazanılan hər bir sosial-iqtisadi uğur cənab Prezidentin adı ilə bağlıdır. Xüsusən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası çərçivəsində qarşıya qoyulan vəzifələrin reallaşdırılması Sumqayıt şəhərini də dinamik inkişaf yoluna çıxarıb. Olkənin makroiqtisadi gostəricilərində bu şəhərin xüsusi cəkisi yuksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal muəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr qazanılıb.

Digər tərəfdən, Sumqayıt müəyyən dövrdə itirdiyi sənaye şəhəri adını özünə qaytarır və bu işlərdə inamla irəliləyir. İndi Sumqayıt həm də Azərbaycanın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Şəhərdə mövcud olan ağır sənaye müəssisələrinin əksəriyyəti müasir texnologiya əsasında yenidən qurulub. Sənayenin inkişafı istiqamətində xəyal görünən, dumanlı təsir bağışlayan layihələr məhz Prezident İlham Əliyevin dolğun, aydın, konkret fəaliyyət prioritetləri çərçivəsində - əzmlə, inadla, fədakarlıqla həyata keçirilir.

Bu günlərdə Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edən Prezident İlham Əliyev deyib: "Ulu Öndərin Sumqayıt şəhərinə də həmişə çox isti münasibəti olmuşdur. Həm sovet vaxtında, həm də müstəqillik dövründə dəfələrlə Sumqayıtda olmuşdur. Mən də bu siyasəti davam etdirirəm. Mənim Sumqayıta bugünkü səfərim 15 il ərzində sayca 24-cü səfərdir. Yəni bu, özlüyündə göstərir ki, Sumqayıta daim diqqət, qayğı göstərilir".

Bəli, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası nəticəsində sürətlə inkişaf edən Sumqayıt şəhərində qeyri-neft sənayesinin davamlı inkişafının təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. "Azərkimya" İB-nin müəssisələri yenidən qurulmuş, "Azgüntex" Zavodu, "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, uniformalar istehsalı fabriki, beton boru və beton döşəmə daşı istehsalı müəssisələri yaradılmış, Kimya Sənaye Parkında polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodu, "STP" MMC-nin müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodları, İnşaat Kimyəviləri Zavodu, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu, tütün məmulatları istehsalı fabriki, pestisid və aqrokimyəvi məhsullar, azot gübrəsi istehsalı, xortum və fitinq birləşmələri, sürtkü yağları, polipropilen və yüksək sıxlıqlı polietilen, elektron təhsil avadanlıqları, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Məlumatların Emalı Mərkəzi istifadəyə verilib, 84 mindən çox yeni iş yeri açılıb. Yeni istehsal sahəsinin yaradılması nəticəsində ümumi daxili məhsul istehsalının həcmi 2,5 dəfə, sənaye məhsulu istehsalı isə 3 dəfə artıb.

Eyni zamanda, şəhərdə Olimpiya və Paralimpiya İdman kompleksləri, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat məktəbi, Uşaq İncəsənət Məktəbi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa edilib, Şəhər Mərkəzi Xəstəxanasının, "Kimyaçılar" Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, 3 nömrəli Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin binaları əsaslı təmir olunub, "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb, yeni Dənizkənarı Bulvar-Kompleksi salınıb, genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb.

Cənab Prezidentin şəhərə son səfəri əlamətdar və yaddaqalan oldu. Dövlət başçısının iştirakı ilə bu dəfə Muğam Mərkəzi və "Nizami" kinoteatrının yeni binası istifadəyə verildi. Sumqayıtın 70 illik yubileyi günlərində dövlət başçısı tərəfindən 9 sərəncam imzalandı. Bütün bunlar Azərbaycan Prezidentinin Sumqayıta olan diqqət və qayğısı kimi tarixə düşdü.

Sumqayıtın timsalında bir daha göründü ki, Azərbaycanın şəhər və rayonları davamlı inkişaf yolundadır. Qazanılan uğurlarda Azərbaycanın hər bir iqtisadi zonasının, hər bir bölgəsinin böyük rolu var.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Sabitlik Azərbaycanın uğurlu və davamlı inkişafının əsas amillərindəndir

*Əvvəli 1-ci səh.*

Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir..."

Sammitdə xüsusi vurğulandığı kimi, Azərbaycan o ölkədir ki, öz inkişafını, gələcəyini milli köklər üzərində qurub. Bu isə ənənəvi dəyərlər üçün ən böyük sərvətdir. Azərbaycanda yetişən gənc nəsil milli, vətənpərvərlik, eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də məhz bu oldu. Çünki dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad, milli təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər" aşılanır: "...Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir..."

Məhz sabitlik şəraitində ölkənin iqtisadi göstəriciləri müsbət ola bilər. 2003-cü ildən bugünə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə artıb, savadlılıq 100 faizə yaxındır, yoxsulluq son 16 il ərzində təxminən 50 faizdən 5 faizə düşüb. Azərbaycan texnoloji inkişafa böyük önəm verir və bu gün dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür, üç peykimiz var. Önəmli nəqliyyat layihələri icra edilir. Onlar sadəcə nəqliyyat layihələri deyil, həm də əməkdaşlıq layihələridir. Çünki nəqliyyat elə bir sahədir ki, qonşu və digər bölgə ölkələri bir-birindən asılı olurlar. Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkə kimi artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilib. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir. Əlbəttə, bu kimi yüksək göstəricilərə sabitlik şəraitində nail olmaq mümkündür.

Bütün bu nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurla davam edəcək, gələcəyimiz parlaq olacaq. Şəksiz və şübhəsiz ki, uğurlu gələcəyin əsas şərti daxili sabitlikdir. Ölkəmizdə bu sabitliyin təminatçısı xalqdır, onun rəyi, onun dövlətə və başçısına, hakimiyyətə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir. Əlbəttə, eyni zamanda dinlərarası münasibətlər də mənəvi gücümüzü artırır.

Azərbaycan Prezidenti əmin olduğunu bildirdi ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq. Bakıdan dünyaya səslənən mesajlar lazımi ünvana çatacaq: "Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır".

Keçirilən sammitin əsas məqsədi beynəlxalq sabitliyə və təhlükəsizliyə ciddi təhdid olan ksenofobiya, islamofobiya, xristianofobiya, antisemitizm kimi təhlükələrin qarşısının alınması üçün siyasi, ictimai və dini liderlərin birgə səylərinin artırılmasının və qlobal dialoqun gücləndirilməsinin vacibliyini bir daha bəyan etməkdir. Təəssüf ki, müasir dövrümüzdə insanlar arasında təcavüzə, zorakılığa və ayrı-seçkiliyə təhrik edən nifrət çağırışları ictimai təhlükəyə çevrilməkdədir. İnformasiya-kommunikasiya sahəsindəki müasir texnologiyalar, sosial şəbəkələr, kütləvi media vasitələri nifrət çağırışlarını bütün dünyada genişmiqyaslı sistemə çevirir. Qlobal miqyasda nifrət çağırışları İraqda, Suriyada, Fələstində, Əfqanıstanda və digər ölkələrdə sabitliyi pozub, hərbi və soyqırımı cinayətlərinə rəvac verib.

Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Bizim qədim tariximizi əks etdirən həm də dini abidələrimizdir. Müxtəlif dövrlərdə ayrı-ayrı dinlərin nümayəndələri Azərbaycanda yaşayıb-yaratmış və gözəl tarixi miras qoymuşlar. İslam aləminin ən qədim məscidlərindən biri Azərbaycanda yerləşir: Şamaxı Cümə Məscidi. O, 743-cü ildə inşa edilib. Bir neçə il bundan əvvəl dövlət tərəfindən əsaslı təmir olunub. Dərbənd məscidindən sonra Qafqazın ən qədim dini məbədidir.

Qədim Qafqaz Albaniyası dövlətinin kilsəsi isə Şəki yaxınlığında yerləşir. Qafqazın ən qədim kilsələrindən biridir. Atəşpərəstlik məbədi - Atəşgah Bakıdadır. Bu da onu göstərir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri var. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilib.

Dövlət başçısı ölkədə yaradılan və qorunub saxlanılan sabitliyi bütün sahələr üçün vacib faktor hesab edərək onu da xüsusi qeyd edir ki, bunun da əsasında Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilib və ya yenidən tikilib.

Bir sözlə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi var və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir: Biz İslam dininə sadiqik. Öz dinimizi təbliğ edirik, eyni zamanda, Azərbaycanda bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər. Beləliklə, ölkəmizdə çox gözəl ictimai ab-hava, pozulmayan sabitlik var və bundan sonra da qorunub saxlanılacaq.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

◆ ADAU-100

# Aqrar elmin inkişaf mərkəzi

## Bir əsr yol keçən Dövlət Aqrar Universiteti qazandığı nailiyyətlərlə fəxr edir

**Ölkəmizin ali təhsil sistemində özünəməxsus yer tutan və respublikamızın kənd təsərrüfatı kadrları ilə təmin edilməsində əvəzsiz xidmətlər göstərən Azərbaycan Dövlət Aqrar Universitetinin gələn il 100 yaşı tamam olacaq. Bir əsr şərəfli yol keçən və bu müddətdə on minlərlə yüksək ixtisaslı kadrlar hazırlayan bu ali təhsil ocağı bu gün qazandığı nailiyyətlərlə haqlı olaraq fəxr edir.**

**Universitetin rektoru, Azərbycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor, dəfələrlə ilin rektoru seçilən İbrahim Cəfərovla söhbətimiz də bu istiqamətdə oldu. Universitetin tarixini mükəmməl bilən və söhbət zamanı onu ardıcıllıqla diqqətə çatdıran rektor danışdıqca hiss olunurdu ki, yola salınan bir əsr heç də bu ali təhsil müəssisəsi üçün hamar olmayıb.**



### Universitetin tarixi

1920-ci il noyabrın 13-də Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzaladığı qərarla Bakı Politexnik İnstitutu təsis edilmiş, dekabrın 14-də bu institutun nəzdində 5 fakültə, o cümlədən kənd təsərrüfatı fakültəsi yaradılmış, bununla da ölkəmizdə ilk dəfə ali kənd təsərrüfatı mütəxəssislərinin hazırlığına başlanılmışdır. 1929-cu ilədək fəaliyyət göstərmiş kənd təsərrüfatı fakültəsində tədris prosesini təmin etmək üçün Cənubi Qafqaza sürgün edilmiş bir qrup görkəmli rus və digər əcnəbi alimlər cəlb edilmiş, 1924-cü ildə ilk məzun buraxılışı olmuşdur. Lakin həmin dövrdə yeni yaradılmış kolxozlara və maşın-traktor stansiyalarına yüzlərlə mütəxəssis tələb olunduğundan ölkədə kənd təsərrüfatı institutunun yaradılması zərurəti yaranmışdır. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1929-cu il 15 may tarixli qərarı ilə kənd təsərrüfatı fakültəsinin bazasında Azərbaycan Kənd Təsərrüfatı İnstitutu təşkil edilmiş və institut Xalq Maarif Komissarlığının tabeliyindən Xalq Torpaq Komissarlığının tabeliyinə verilmişdi. 1931-ci ildə Bakıdan Gəncəyə köçürülərək Zaqafqaziya Pambıqçılıq İnstitutu, Azərbaycan Zoobaytarlıq İnstitutu və Tbilisidəki Hidromeliorasiya İnstitutu Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tərkibinə birləşdirilərək çoxprofilli ali təhsil müəssisəsi yaradılmışdı.

1930-cu ilin dekabr ayında respublikamızda ali kənd təsərrüfatı mütəxəssislərinin hazırlığına başlanılmasının 10 illiyi ilə əlaqədar institutda dar çərçivədə yubiley keçirilmişdir. Bu münasibətlə 50 çap vərəqi həcmində 1000 nüsxə (onun 500 nüsxəsi türk, 500 nüsxəsi isə rus dilində) yubiley toplusu Bakıda "Qızıl Şərq" mətbəəsində nəşr etdirildi. Elə həmin vaxt institutun tarixi də təbii olaraq kənd təsərrüfatı fakültəsinin yarandığı ildən, yəni 1920-ci ildən hesablandı.

1940-cı ildə respublikamızda ali kənd təsərrüfatı təhsili üzrə mütəxəssis hazırlığının 20 illiyi ilə əlaqədar Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun yubileyi keçirilmiş, kənd təsərrüfatı istehsalının və elminin inkişafında böyük xidmətləri nəzərə alınaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə institutun bir qrup əməkdaşı Sovet İttifaqının orden və madalları ilə təltif olunmuşdur.

1950-ci ildə isə SSRİ Təhsil Nazirliyinin 10 aprel 594 nömrəli əmrinə əsasən institutun 30 illiyi məhdud çərçivədə qeyd edilmişdir.

### Təhsil ocağının inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Ümummilli Lider Heydər Əliyev digər sahələr kimi ixtisaslı kənd təsərrüfatı kadrlarının hazırlanmasına xüsusi önəm verirdi.

Həmin il iyulun 22-də Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin "S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun 50 illiyinə hazırlıq və onun keçirilməsi tədbirləri haqqında" qərar qəbul olunmuş, yubileyin keçirilməsi 1970-ci il dekabr ayının 14-nə təyin edilmiş və Mərkəzi Komitənin katibliyinin sədrliyi ilə 27 nəfərdən ibarət yubiley komissiyası yaradılmış, həmin qərardan irəli gələn müddəaların icrasını təmin etmək məqsədilə müvafiq orqan və təşkilatlara tapşırıqlar verilmişdir. Müəyyən səbəblərdən yubiley təyin olunmuş müddətdə keçirilməmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1979-cu il 13 mart tarixli qərarı ilə yubileyin keçirilməsi yenidən gündəmə gəlmişdir. Həmin illərdə respublikaya rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin xidməti sayəsində yüksəkixtisaslı mütəxəssis hazırlığında və kənd təsərrüfatı elminin inkişafında xidmətlərinə görə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu SSRİ Ali Soveti Rəyasət Heyətinin 1979-cu il 16 may tarixli fərmanı ilə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1980-ci il dekabr ayının 16-da görkəmli dövlət xadimi Heydər Əliyev Gəncəyə gələrək Sovetlər İttifaqının rəhbərliyi adından ordeni kollektivə təqdim etmişdir.

Qeyd edək ki, hazırda universitetdə 14 ixtisas üzrə mütəxəssis hazırlığı yalnız dövlət sifarişi əsasında həyata keçirilir. Tədris 3 dildə - Azərbaycan, rus və ingilis dillərində aparılır. 10 ixtisasda rus bölməsi, 6 ixtisasda ingilis bölməsi fəaliyyət göstərir.

Universitetə göstərilən dövlət qayğısının nəticəsidir ki, son yeddi ildə rekord sayda - bakalavriat səviyyəsində 1311, magistratura səviyyəsində 160 tələbə qəbul olunmuşdur. Dövlət başçısı İlham Əliyevin göstərişi ilə 2018-2019-cu tədris ilindən başlayaraq qəbul imtahanlarında kənd təsərrüfatı ixtisaslarına 500 və daha çox balla qəbul olunmuş tələbələrə 200 manat, 400-499 balla qəbul olunan gənclərə isə 100 manat əlavə təqaüd verilir. Bundan başqa, universitet elmi şurasının qərarına əsasən qeyri kənd təsərrüfatı ixtisaslarına 500 və daha çox balla qəbul olunmuş və imtahan sessiyasında əlaçı təqaüdü alanlara 120 manat, 400-499 balla qəbul olunmuş və imtahan sessiyasında əlaçı təqaüdü alanlara 80 manat, sessiyada bütün fənlərdən 100 bal alanlara 100 manat, 5 fəndən 100 bal alanlara 80 manat, 4 fəndən 100 bal alanlara 60 manat, ingilisdilli ixtisaslarda sessiyanı müvəffəqiyyətlə başa vuranlara isə 70 manat təqaüd təyin olunur. Universitetdə ən yaşlı tələbəyə - 50 yaşlı Əfsəl Qazıyevə 200 manat, sessiyanı əla qiymətlərlə başa vurduğuna görə 130 manat və bütün fənlərdən 100 bal topladığına görə 100 manat, ümumilikdə 430 manat təqaüd verilir.



















Universitet rəhbərliyi məzunların işlə təminatını da daim diqqətdə saxlayır. Bu məqsədlə cari ilin iyun ayının 1-də mühəndislik fakültəsinin tədris binasında ənənə şəklini almış növbəti 11-ci "Məzun-2019" yarmarkası keçirilmişdir. Yarmarkada 230-a yaxın müəssisə və təşkilat iştirak etmiş, 1124 vakant iş yeri təqdim olunmuşdur. Yarmarkada Kənd Təsərrüfatı naziri İnam Kərimov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov da iştirak etmişdir.

### Universitetin maddi-texniki bazası möhkəmləndirilir

Son illər ölkəmizdə aqrar sahənin sürətli inkişafının təmin olunması istiqamətində həyata keçirilən tədbirlər yüksək ixtisaslı kənd təsərrüfatı kadrlarına böyük ehtiyac olduğunu gündəmə gətirdi. Bu vacib işin öhdəsindən layiqincə gələn Azərbaycan Dövlət Aqrar Universiteti bu gün respublikamızı yüksək ixtisaslı kadrlarla təmin etmək iqtidarındadır.

Xüsusilə son illər Prezident İlham Əliyevin universitetə göstərdiyi diqqət və qayğı nəticəsində onun maddi-texniki bazası daha da gücləndirilmiş, tələbələrin seçdikləri peşələrə daha mükəmməl yiyələnmələri üçün zəngin baza yaradılmışdır. Gəncəyə hər gəlişində universitetlə maraqlanan dövlət başçısı onun fəaliyyətinin genişləndirilməsi üçün bir neçə sərəncam da imzalamışdır. 2016-cı il fevralın 17-də və 10 noyabr 2017-ci il tarixində Gəncəyə səfəri çərçivəsində çoxsaylı obyektlərin, o cümlədən Azərbaycan Dövlət Aqrar Universitetinin ikinci müasir tələbə yataqxanasının açılışında iştirak edərək kollektivə uğurlar arzulamışdır. Qeyd edək ki, ümumi ərazisi 13640 kvadratmetr olan kompleks 4-ü 7 mərtəbəli və 1-i 6 mərtəbəli olmaqla 5 korpusdan ibarətdir. Kompleksdəki 257 otağın hamısı zəruri mebel və inventarlarla təchiz edilib. Hər mərtəbədə istirahət guşələri və mətbəx var. Burada vətəndaşların qeydiyyat şöbəsi, 120 nəfərlik akt zalları və fitnes zalları, kafe, məişət və istirahət otaqları, kitabxana, tibbi müayinə otağı və stomatoloji kabinet, valideynlərlə görüş otağı yaradılıb. Yataqxanaların su, elektrik, istilik və rabitə xətləri ilə təmin edilməsi üçün fərdi qazanxana, hovuz, nasosxana və ayrıca transformator yarımstansiyası inşa edilmişdir. Kompleksin ətrafında geniş abadlıq və quruculuq işləri aparılıb. Burada tələbələr asudə vaxtlarını səmərəli keçirmək üçün hər cür imkana malikdirlər. Bir sözlə, 4 ulduzlu hotel səviyyəsində olan yataqxana kompleksində hər cür şərait yaradılmışdır. Hazırda kompleksdə daha bir yataqxananın da tikintisi nəzərdə tutulmuşdur.

İnşasına keçən il başlanılmış 4 mərtəbəli tədris binasında da tikinti işləri sürətlə davam etdirilir. ADAU-nun nəzdində fəaliyyət göstərəcək lisey binasında isə son tamamlama işləri görülür.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə göstərildiyi kimi, kənd təsərrüfatı sahəsində ölkənin kadr hazırlığı mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetinin bütün laboratoriyaları tamamilə yenilənmiş, müasir avadanlıqlarla təchiz edilmiş və yeni təcrübə bazaları yaradılmışdır. Bu işdə zəngin təcrübə toplamış ölkələrlə əlaqələr daha da genişləndirilmişdir. Məsələn, Türkiyə Respublikası Universitetinin baytarlıq sahəsindəki zəngin təcrübəsindən istifadə edilərək ADAU-da baytarlıq təbabəti və zoomühəndislik fakültəsinin tədris bazasının müasir standartlara uyğunlaşdırılması və "baytarlıq klinikası"nın yaradılması reallaşdırılmışdır. Bundan başqa, ölkədə süni mayalanma üzrə mütəxəssislərə tələbatın artması nəzərə alınaraq baytarlıq təbabəti və zoomühəndislik fakültəsində yeni süni mayalanma tədris mərkəzi yaradılmışdır. Bu məqsədlə vaxtilə baxımsız vəziyyətdə olan bina əsaslı təmir edilmiş, burada 5 auditoriya, heyvanların süni mayalandırılması üçün xüsusi otaq yaradılmış, sanitar qovşaq qurulmuş, binanın ətrafında səliqə-sahman yaradılmışdır.

### Kənd Təsərrüfatı Nazirliyi universitetin fəaliyyətini daim nəzarətdə saxlayır

Son bir ildə 4 dəfə universitetdə olan Kənd Təsərrüfatı naziri İnam Kərimov təhsil ocağının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün böyük kömək göstərmişdir. Keçirilən görüşlərdə kənd təsərrüfatının intensiv inkişafının peşəkar kadrlardan birbaşa asılı olduğunu diqqətə çatdıran nazir qeyd edib ki, aqrar sahənin təməl şərtlərindən biri savadlı, müasir dünyagörüşlü mütəxəssislər yetişdirməkdir. Aqrar sahə dövlət dəstəyi ilə yanaşı, bu sahədə çalışan insanların sayəsində inkişaf edir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da aqrar sahədə məhsuldarlığın artmasına imkan verən müasir texnika və texnologiyalardan səmərəli istifadə etmək bacarığına malik peşəkar kadrlara ehtiyac getdikcə artır. Məhz bu baxımdan tarixi ənənələrə malik, yüksəkixtisaslı kənd təsərrüfatı mütəxəssisləri hazırlayan Azərbaycan Dövlət Aqrar Universiteti ali təhsil məkanında xüsusi yeri və çəkisi ilə seçilir. Bu gün aqrar ixtisas və peşələr ən çox nüfuz qazanan ixtisaslardan sayılır.

Bu ilin sentyabrın 17-də keçirilən "Bilik" günündə nazir İnam Kərimovun iştirak etməsi isə kollektivdə ruh yüksəkliyi yaratmışdır. Nazir tələbələri yeni dərs ilinin başlanması münasibətilə təbrik etdikdən sonra universitetin tədris korpuslarını gəzmiş və bəzi məsləhətlər vermişdir.

### Tədris-təcrübə sahələri genişləndirilir

Hazırda universitetdə struktur bölmə kimi, 6 fakültə, 32 kafedra, tədris, elm, kadrlar, tələbə, redaksiya-nəşriyyat, mətbuat, arxiv, təcrübə və karyera, cümhuriyyət muzeyi, elmi-tədqiqat laboratoriyası, magistr hazırlığı mərkəzi, informasiya texnologiyaları, beynəlxalq əlaqələr şöbəsi, elektron kitabxana, mətbəə və "Aqrar mütəxəssis" qəzetinin redaksiyası fəaliyyət göstərir.

Bu gün universitetdə ən çox diqqət yetirilən məsələlərdən biri də tədris-təcrübə təsərrüfatının genişləndirilməsidir. Kənd təsərrüfatının rəqabət qabiliyyətinin gücləndirilməsi layihəsi çərçivəsində universitetdə iribuynuzlu heyvanın və atın saxlanması məqsədilə ferma yaradılmışdır. Ferma üçün lazım olan avadanlıq və ləvazimatların alınması həyata keçirilmişdir. Ümumiyyətlə, bu nümunəvi təsərrüfatda heyvanlar üzərində müasir diaqnostika və müalicə-profilaktika tədbirlərinin əyani şəkildə həyata keçirilməsi üçün baytarlıq və zoomühəndislik fakültəsinin tələbələrinə hər cür şərait yaradılmışdır.

Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış texniki-iqtisadi əməkdaşlıq müqaviləsi çərçivəsində universitetdə xüsusi təlim otağı da yaradılmışdır. Otaq üçün 40 ədəd stolüstü kompüter, 17 ədəd laptop, 5 ədəd lazer printer, 5 ədəd UPS, 15 ədəd elektron lövhə, 1 ədəd kseroks, 3 ədəd proyektor, 3 ədəd multifunksional maşın, 1 ədəd digital kamera gətirilmişdir.

Aqrokimya laboratoriyası da tamamilə yenidən qurulmuşdur. Respublikamızın 11 bölgəsində torpaq və bitkilərin analizi üçün quraşdırılmış laboratoriyalardan biri burada yaradılmışdır. Laboratoriyada bitkilərin həyatı üçün zəruri olan bütün makro və mikro elementləri, torpağın aqrokimyəvi, bioloji, su-fiziki, hava və istilik xassələrini təyin etmək, torpaq və bitkilərin tərkibində olan ağır metalları, zəhərli maddələri aşkar etmək mümkündür.

Universitetdə mühəndislik fakültəsində də yeniliklər edilmişdir. Belə ki, burada "John Deere" təlim mərkəzi yaradılmış, mərkəz müasir avadanlıqlarla, texnikaların idarə edilməsi üçün xüsusi stimulyator və digər vasitələrlə təmin edilmişdir. Burada təlimlər Amerika Birləşmiş Ştatlarından dəvət olunmuş mütəxəssislər tərəfindən aparılır.

Uzun illər baxımsız qalmış və acınacaqlı vəziyyətə düşmüş tədris-təcrübə təsərrüfatı da yenidən qurulmuşdur. 5 hektarlıq ərazi hasarlanmış, 2 ədəd giriş qapısı quraşdırılmışdır. Subartezian quyusunun məhsuldarlığını artırmaq üçün əsaslı təmir işləri aparılmışdır. Ərazinin işıq sistemi yenidən qurulmuş, 2 hektar sahədə yeni meyvə bağı salınmışdır. Tikilmiş müasir tövlədə saxlamaq üçün 30 baş damazlıq heyvan alınmış, ərazidə əkilmiş əkin sahələrindən 40 ton arpa, 5,4 ton buğda, 3 ton qarğıdalı götürülmüşdür ki, bu da heyvanların qış mövsümündə yemləndirilməsinə bəs edir. Heyvanların yaşıl yemlə təmin olunması də təşkil edilmiş, belə ki, ərazidə 2 hektar sahəyə yonca səpilmişdir.

Ümumiyyətlə, tələbələrin innovativ texnologiyalara yiyələnməsi daim diqqət mərkəzindədir. Bunun üçün universitetdə hər cür şərait var. Burada yaradılmış aqrobiznes inkubasiya mərkəzi, aqrokimya, toxumçuluq, qapalı və açıq balıqyetişdirmə, kənd təsərrüfatı maşınlarının intellektual idarə edilməsi laboratoriyaları, quşçuluq və bildirçinyetişdirmə mərkəzləri, maşın-traktor parkı, pataloji anatomiya muzeyi-auditoriyası tələbələrin bu sahədə biliklərinin zənginləşdirilməsinə kömək edir. Bundan başqa, 2019-cu il sentyabr ayının 17-dən "ADAU TV" yaradılmış və ilk efir oktyabrın 1-də reallaşdırılmışdır. 100 il şərəfli yol keçən universitetin bugünkü həyatı barədə ətraflı məlumat verilmişdir. İnternet TV-nin yaradılması isə universitetdə baş verənlərin daha geniş yayılmasına imkan vermişdir.

### Əcnəbi gənclərin bu ali təhsil ocağına maraqları ildən-ilə artır

Hazırda ADAU-da kənd təsərrüfatının müxtəlif sahələri üzrə 6 minədək tələbə təhsil alır. Onlardan 65 tələbə xarici ölkələrdən gəlmişdir. Əsasən Türkiyə, Konqo, Gürcüstan, İran, Rusiya, Somali, Malayziya, Qazaxıstan və Lesoto Krallığından olan bu tələbələr daha çox baytarlıq və əczaçılıq ixtisaslarına yiyələnirlər. Universitetdə əcnəbi tələbələrin seçdikləri ixtisaslara mükəmməl yiyələnmələri, habelə boş vaxtlarını səmərəli keçirmələri üçün lazım olan bütün şərait yaradılmışdır. Onlar yerli gənclərə qaynayıb-qarışmaqla seçdikləri ixtisasa mükəmməl yiyələnməklə yanaşı, Azərbaycanın milli adət-ənənələrini də mənimsəyirlər. Hətta Azərbaycan dilinə maraq göstərənlər bu dili mənimsəməyə çalışırlar.

### Xarici əlaqələr genişlənir

Yarandığı gündən buvaxtadək universitetdə 70 mindən artıq yüksəkixtisaslı kənd təsərrüfatı mütəxəssisi hazırlanmışdır. Ali təhsil ocağının məzunları arasında görkəmli alimlər, dövlət və ictimai xadimlər, parlament deputatları, yerli və mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri var. Məzunlardan 14 nəfəri AMEA-nın həqiqi üzvü, 9-u isə müxbir üzvlüyünə namizəd olmuşdur. Universitetin ABŞ, Fransa, Almaniya, Rusiya, Polşa, Macarıstan, Türkiyə, İran, Niderland, İspaniya və MDB ölkələrinin ali kənd təsərrüfatı universitetləri ilə tədris və elmi əlaqələri var. Bu əlaqələrə uyğun olaraq birgə əməkdaşlıq sayəsində beynəlxalq konfranslar, simpoziumlar və digər yığıncaqlar keçirilir. Xarici dövlətlərin universitetlərindən burada mühazirə oxumaq üçün alimlər dəvət olunur, elmi-tədqiqat işlərinin aparılması üçün birgə əməkdaşlıq layihələri həyata keçirilir.

Dünyanın 20 ölkəsinin 50-dən artıq universiteti ilə əməkdaşlıq edən Azərbaycan Dövlət Aqrar Universitetinin ikitərəfli əməkdaşlığa malik olduğu ölkələrdən biri də Almaniyadır. Hər il onlarla tələbə, professor və müəllim heyəti təhsil almaq, təcrübə keçmək, bilik və bacarıqlarını artırmaq məqsədilə Almaniya Federativ Respublikasının müvafiq ali təhsil və elmi-tədqiqat müəssisələrinə göndərilir. Ümumiyyətlə, ADAU-nun Almaniyanın aqrar sahə üzrə kadr hazırlığı ilə məşğul olan 10-a yaxın ali təhsil müəssisəsi ilə geniş ikitərəfli əlaqələri var.

*Bu universitetlərdən Münhen Texniki Universitetini, Vaynştefan Trizdorf Tətbiqi Elmlər Universitetini, Giessen Universitetini, Qrayfsvald Universitetini misal göstərmək olar. Bundan başqa, tələbələrin praktik bilik və bacarıqlarının artırılması məqsədilə ADAU Alaniyanın bir neçə təcrübə təşkilatları ilə də əməkdaşlıq edir.*

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# “Azərenerji” payız-qış mövsümünə hazırlıq hesabatı verdi

2019-2020-ci il payız-qış mövsümünə hazırlıqla bağlı “Azərenerji” ASC-nin müəssisələri üzrə ayrı-ayrılıqda görüləcək konkret işlər müəyyənləşdirilərək bütün zəruri tədbirlər görülüb.




Bu məqsədlə noyabrın 14-də payız-qış mövsümünə hazırlıq işlərinin tərkib hissəsi kimi elektrik stansiyaları və yarımstansiyaların əməliyyat heyəti cəlb edilməklə əks-qəza məşqi keçirilib.

Enerji müəssisələrinin əməliyyat heyəti şərti qəzanın aradan qaldırılmasına normativ vaxt çərçivəsində nail olub. Əks-qəza məşqlərinin nəticələri təhlil olunarkən uğurlarla yanaşı, buraxılan səhvlər də diqqətdən kənarda qalmayıb, onların aradan qaldırılması üçün tapşırıqlar verilib. Ümumilikdə sistem üzrə əks-qəza məşqi, əməliyyat heyətlərinin hərəkətləri qənaətbəxş hesab olunub. 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq işləri yekunlaşdıqdan sonra noyabrın 19-da mərkəzi komissiya və yerli komissiya üzvlərinin iştirakı ilə keçirilən iclasda il ərzində görülmüş işlərə qiymət verilib. Ümumilikdə nəzərdə tutulmuş 897 tədbirdən 807-nin icra olunduğu qeyd edilib, obyektiv səbəblər üzündən icrası mümkün olmayan tədbirlərin ilin sonunadək yerinə yetirilməsi üçün müvafiq tapşırıqlar verilib. Qiymətləndirmə yekunlaşdıqdan sonra bütün enerji müəssisələrinə payız-qış mövsümünə hazırlıq barəsində pasportlar təqdim olunub.

***“Azərbaycan”***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi 2020-ci il üçün soba odun yanacağının satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satın almalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz.

Əlaqələndirici şəxs: Əmənov Cəlal Tofiq oğlu
Ünvan: Sabirabad şəhəri, 20 Yanvar küçəsi, 9

**Tender 1 (bir) LOT üzrə keçiriləcək**

**LOT 1 -** Soba odun yanacağının satın alınması

Maraqlananlar tenderin əsas şərtlər toplusunu (əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba hər bir LOT üzrə 50 (əlli) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**12 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi**
**H/h: AZ46AİİB32051019444400201144**
**VÖEN: 6800086231**
**Büdcə vəziyyəti:**
**İnzibati təsnifat:**
**Bank: “Kapital bank” Sabirabad filialı**
**Kod: 200446**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2x**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*

*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*

*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*

*- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*

*4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **16.12.2019-cu il saat 11:00-dək** Tender komissiyasına dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **24.12.2019-cu il saat 17.00-a** qədər elektron portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **25.12.2019-cu il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi vergi və gömrük sahəsində verilmiş güzəştlərə dair “Mərkəzləşdirilmiş Elektron Reyestr Sistemi”nin qurulması üçün

### *açıq tender elan edir*

**Tender etender.gov.az saytında Portal vasitəsilə keçirilir.**

**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**

İştirak haqqı **2000** (iki min) manat məbləğində müəyyən edilmişdir.

Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən iddiaçılara iştirak haqqı aşağıda göstərilən hesaba ödənildikdən sonra Portal vasitəsilə təqdim ediləcəkdir:

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**A1. Benefisiar (alan) bank**
**Adı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**B2. Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
**Hesab №: AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyə kodu - 7**
**Büdcə təsnifat kodu - 142340**
**VÖEN: 1400108191**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün Portal vasitəsilə müraciət;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (notarial qaydada təsdiq edilmiş), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 3 (üç) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
*- iddiaçının son 3 (üç) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının ixtisas göstəricilərinə dair Portalın müvafiq bölmələrində tələb olunan sənədlər;*
*- iddiaçının proqram təminatları və sistemlərin qurulmasında və maliyyə/iqtisadiyyat/ İKT ilə bağlı təhlillərdə ən azı 3 (üç) illik təcrübəyə malik olmalı, bu sahədə ixtisas uyğunluğu sertifikatı olmalı, dövlət orqanlarında bənzər layihələrin icrasının təcrübəsi olmalıdır;*
*- digər layihələrdə tapşırıqların müvəffəqiyyətlə yerini yetirildiyini göstərən sənədlərin təsdiqlədiyi ən az 5 (beş) uğurla tamamlanmış layihəyə bənzər təcrübəyə sahib olmalıdır və həmin müştərilərin əlaqə məlumatlarını təqdim etməlidir;*
*- layihə menecerinin layihə idarəetmə sahəsində sertifikatları olmalıdır (PMP, Prince 2 Practicioner, İPM lvl C);*
*- icraçı təşkilatın layihədə iştirak edən İTİL üzrə ekspert sertifikatı olan daimi mütəxəssisinin olması zəruridir;*
*- iddiaçının komandasında maliyyə modelləşdirmə sistemlərini həyata keçirmək təcrübəsi olan sertifikatlı mütəxəssisi olmalıdır;*
*- informasiya təhlükəsizliyi xidmətlərini lazımi səviyyədə təmin etmək üçün iddiaçının avadanlığı ikinci səviyyədən aşağı olmayan (Silver) statusuna sahib olmalıdır;*
*- iddiaçı bütün iş nəticələrinə görə lisenziyanın və patent təmizliyinin və müəlliflik hüququnun bütün tələblərinə uyğun olmağını təmin etməlidir;*
*- layihə çərçivəsində sistemdən istifadə etmək üçün müvafiq təlimlər təşkil etməlidir və 2 il ərzində sistemin istifadəsi ilə bağlı texniki dəstəyin göstərilməlidir;*
*- əsas şərtlər toplusu üzrə Portalın ixtisas göstəriciləri bölümündə tələb olunan digər sənədlər;*
*- portalın texniki meyarlar bölümündə təyin edilmiş meyarların cavablarını əks etdirən və onları təsdiq edən sənədlər;*
*- iddiaçıların müvafiq mallar üzrə (əgər proqramın yaranması zamanı ehtiyac olarsa) mənşə və uyğunluq sertifikatları;*
*- yekun tender təklifi (texniki və qiymət təklifi daxil olmaqla tender təklifi qiymətinin 1 faizi həcmində təklifin təminatı (bank zəmanəti) ilə birlikdə).*

Təqdim edilən sənədlər əsas şərtlər toplusunda əlavə edilmiş formalara uyğun olmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün tender təkliflərini **20 dekabr 2019-cu il saat 19:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **23 dekabr 2019-cu il saat 10:30-da** açılacaqdır.

Tenderlə əlaqədar suallar və sorğular, əsas şərtlər toplusunun izahı üzrə (sual-cavab bölümündə) əlaqələndirici şəxslə Portal vasitəsilə əlaqə saxlamaq olar.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 may 2019-cu il tarixdə elan edilmiş “10000 ədəd 3,25 metr hündürlüyündə dəmir-beton calaq, 5000 ədəd 1,2 metr hündürlüyündə ölçü-nişan dirəyi və ⌀ 5 mm-lik 30 ton yanmış dəmir məftilin satın alınması” üzrə keçirilmiş açıq tender prosedurunun qalibi “Adagio SD” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “Adagio SD” MMC arasında 04 noyabr 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Çovdarda 100 min ağac tingi yetişdiriləcək

“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) qiymətli və əlvan metal yataqlarının işlənilməsi istiqamətində fəaliyyət göstərən dağ-mədən şirkəti olaraq hasilat prosesi zamanı ətraf mühitə təsirlərin minimuma endirilməsi istiqamətində ardıcıl ekoloji tədbirlər həyata keçirməkdədir.



Bu tədbirlərin davamı olaraq cəmiyyət “Regional İnkişaf” İctimai Birliyi və IDEA İctimai Birliyi ilə birgə əməkdaşlıq çərçivəsində ətraf mühitin mühafizəsi istiqamətində yeni yaşıllaşdırma layihəsinin icrasına başlayır.



Layihə çərçivəsində Balakən rayonunda yerləşən meşə ərazisindən 500 kq-dan çox palıd qozası tədarük edilib. Palıd qozalarından ayrılan 100 mindən çox toxum Çovdar filiz emalı sahəsində tingliyin salınması üçün istifadə olunacaq. Hazırda 20 mindən çox toxum aqrotexniki qaydalara uyğun olaraq əkilib və əkim prosesi davam etdirilir.

Layihənin məqsədi yaşıllaşdırma işlərinin həyata keçirilməsi ilə ətraf mühitin mühafizəsi, həmçinin mədən ərazilərində hasilat zamanı təbiətə potensial mənfi təsirlərin qarşısının alınmasıdır.

Tinglərin daimi yerinə köçürülməsini təmin etmək üçün müvafiq tədbirlərin görülməsi nəzərdə tutulub. Qeyd edək ki, yetişdiriləcək palıd tingləri ağacəkmə aksiyalarında istifadə edilərək təqribən 40 hektara yaxın ərazinin yaşıllaşdırılmasına imkan yaradacaq.

Xatırladaq ki, cəmiyyət ekoloji siyasət çərçivəsində öhdəliklərin yerinə yetirilməsi məqsədilə fəaliyyət göstərdiyi ərazilərdə ekoloji tarazlığın qorunması və bərpası istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi və bu sahədə fəaliyyət göstərən digər aidiyyəti dövlət və özəl qurumlarla birgə davamlı işlər həyata keçirir.

Çovdar filiz emalı sahəsində ekoloji monitorinq proqramına uyğun mütəmadi olaraq tozölçmə işlərinin həyata keçirilməsi, torpaq, su hövzələri və sututarlardan götürülən nümunələr əsasında təhlillərin aparılması, eyni zamanda istehsalat prosesi nəticəsində yaranan bütün növ tullantıların qanunamüvafiq şəkildə idarə olunması kimi tədbirlər “AzerGold” QSC tərəfindən reallaşdırılmaqdadır. QSC tərəfindən ekoloji siyasət çərçivəsində ətraf ərazilərin tullantılardan təmizlənməsi üçün mütəmadi iməcilik aksiyaları keçirilir. Bu kimi tədbirlərin həyata keçirilməsi nəticəsində Çovdar filiz emalı sahəsində bugünədək 8000-dən artıq ağac və kol əkilib, yaşıllıqlar salınıb.

***“Azərbaycan”***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı LOTlar üzrə işlərin satın alınması üçün

### *təkliflər sorğusu keçirir*

LOT 1. Bakı şəhəri Xəzər rayonunda açılması nəzərdə tutulan DOST mərkəzi üçün avadanlıqların, bayraqların, barelyefin, uniformaların, bədii-tərtibat elementlərinin və reklam qurğularının satın alınması.

LOT 2. Bakı şəhəri Nizami rayonunda açılması nəzərdə tutulan DOST mərkəzi üçün avadanlıqların, bayraqların, barelyefin, uniformaların, bədii-tərtibat elementlərinin və reklam qurğularının satın alınması.

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı: LOT 1 üzrə 200 (iki yüz) manat**
**LOT 2 üzrə 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK: CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İstirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **28 noyabr 2019-cu il saat 18:00-dək** qəbul olunur.

İddiaçıların təklifləri **29 noyabr 2019-cu il saat 10:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT 1:** DSLAM avadanlığının satın alınması

**İştirak haqqı: 500 (beş yüz) manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəhəri, Tbilisi prospekti, 187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma portalında yerləşdirməlidirlər:

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
*- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
*- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
*- iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
*- iddiaçının müştəri bazası haqqında məlumatlar;*
*- təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
*- tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **13 dekabr 2019-cu il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **24 dekabr 2019-cu il saat 11:00-dək** vahid satınalma portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **24 dekabr 2019-cu il saat 11:00-da** vahid satınalma portalında açılacaqdır.

***Tender komissiyası***

MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 22 saylı binası üzrə 1 mənzil, 23 saylı binası üzrə 54 mənzil, 24 saylı binası üzrə 58 mənzil, 25 saylı binası üzrə 60 mənzil, 26 saylı binası üzrə 15 mənzil və 27 saylı binası üzrə 60 mənzilin, ümumilikdə 248 mənzilin satışı 25 dekabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 dekabr 2019-cu il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 27 dekabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 dekabr 2019-cu il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

### Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 248 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 17.03.2017-ci il tarixli 23364 nömrəli müsbət rəyi mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 22 | 441,56 | 12 | 1 | 1 | 1 | 31,50 | 40,12 | "MƏK-AN" MMM / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi 26N. | 22 dekabr 2018-ci il |
| 23 | 441,56 | 12 | 1 | 1 | 6 | 31,50-33,01 | 40,12 | "Merkuri-İnşaat" MMC ("Conco" MMC ilə konsorsium) / Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64,mənzil 143 | 11 dekabr 2018-ci il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 24 | 645,25 | 9 | 2 | 1 | 9 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 46 | 50,18-55,02 | 60,10-66,91 | | |
| | | | | 3 | 3 | 69,08-69,68 | 84,47 | | |
| 25 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "HN Constrution" MMC ("Xumar-98" MMC ilə konsorsium) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 1 mart 2019-cu il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 26 | 645,25 | 9 | 2 | 1 | 2 | 33,10 | 40,52 | "HN Constrution" MMC / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 18 iyun 2019-cu il |
| | | | | 2 | 13 | 50,12-55,02 | 60,10-66,91 | | |
| 27 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "Kat Holding" MMC / Xətai rayonu, İzzət Orucova küçəsi, 1 | 30 dekabr 2018 |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |

### Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

1 otaqlı mənzillərin qiyməti – **29 925** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **47 614** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **65 626** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **205-236 manat** | **282-288 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

| Otaqların sayı | Mənzilin qiyməti (manatla) | Əlavə endirim məbləği (manatla) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manatla) |
|---|---|---|---|
| 1 | 29 925 | 2 992 | **26 933** |
| 2 | 47 614 | 4 761 | **42 853** |
| 3 | 65 626 | 6 563 | **59 063** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

*Təkrar*

# Lənkəran Dövlət Universiteti

## *açıq tenderə dəvət edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

**LOT 1.** Qazanxana və camaşırxananın cari təmiri

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 nömrəli ünvanda ala bilərlər.

**İştirak haqqı: 300 (üç yüz) manat**

**Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu, telefon: (025) 255-14-80**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT BIK AIIBAZ2X**

Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50. Faks: (025) 255-27-86; www.lsu.edu.az: office@lsu.edu.az

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06 dekabr 2019-cu il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 16 dekabr 2019-cu il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 dekabr 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 25.06.2007-ci ildə Şərif Pənah oğlu Rzayevin adına verilmiş Sumqayıt şəhəri, 2-ci mikrorayon ərazisində yerləşən 1/32,5 mərtəbəli binanın 4-cü mərtəbəsində yerləşən 13 nömrəli mənzilə dair MH 0011699 seriyalı (reyestr nömrəsi 309011001421-05101-093002, qeydiyyat nömrəsi 140705621) Çıxarış itdiyi üçün etibarsız sayılır.




# Bələdiyyə seçkiləri ilə əlaqədar "Polis əməkdaşları üçün yaddaş kitabçası" nəşr edilib

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası müxtəlif seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində "Polis əməkdaşları üçün yaddaş kitabçası" hazırlayıb. Layihənin həyata keçirilməsində və nəşrin hazırlanmasında başlıca məqsəd polis əməkdaşlarının bələdiyyə seçkilərindəki fəaliyyətinin daha da təkmilləşdirilməsindən ibarətdir.

Komissiyadan AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə birgə hazırlanan yaddaş kitabçası polis əməkdaşlarının istifadəsi üçün nəzərdə tutulub. Nəşrdə polis əməkdaşlarının seçkiqabağı təşviqat dövrü, səsvermə günü və rəsmi seçki sənədlərinin daşınması və mühafizə olunması prosesində xidməti vəzifələrini yerinə yetirərkən həyata keçirəcəyi tədbirlər, eləcə də rol və vəzifələri barədə ətraflı məlumat verilib.

Yaddaş kitabçası Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, "Polis haqqında" qanun və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi normativ xarakterli aktlar əsasında hazırlanıb.

## "Azərsu" ASC daxili vəsaiti hesabına Nizami rayonu Mikayıl Əliyev və Rüstəm Rüstəmov küçələrinin kəsişməsində yerləşən kollektor üçün şiberin hazırlanması və quraşdırılması işlərinin satın alınması məqsədilə *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431-47-67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 28 noyabr 2019-cu il saat 15:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında 29 noyabr 2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları İsmayıl Aslanova qardaşı

**ŞAHLAR ASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi və kollektivi komitə sədrinin müavini Dövlətxan Dövlətxanova əzizi

**YARMƏT XALİDDİN OĞLU YARMƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8909
Sifariş 3907
Qiyməti 40 qəpik

